RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 111 (8704) ÇƏRŞƏNBƏ AXŞAMI, 1 iyun 2021-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





# Yeni dəhliz açılacaq

## Türkiyə-Azərbaycan arasında bu bağlantı daha da möhkəm olacaq

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 30-da Türkiyə Respublikasının nəqliyyat və infrastruktur naziri Adil Karaismailoğlunun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

AZƏRTAC xəbər verir ki, nümayəndə heyətini salamlayan **Prezident İlham ƏLİYEV** dedi:

- Xoş gəlmisiniz. Sizi görməyimə şadam. Əminəm ki, səfəriniz uğurlu keçəcək. Müzakirə ediləsi məsələlər çoxdur. Əslində, nəqliyyat sahəsi həmişə bizim gündəliyimizdə ön sıralarda idi. İkinci Qarabağ savaşından sonra bunun önəmi daha da artdı. Çünki əvvəlki illərdə birgə həyata keçirdiyimiz layihələrlə yanaşı, yeni layihələr də artıq masa üzərindədir. Bizdə çox güclü işbirliyi tarixi var. Əlbəttə ki, bunların arasında Bakı-Tbilisi-Qars dəmir yolunun birgə inşa edilməsinin xüsusi önəmi var. Bu, bildiyiniz kimi, Şərq-Qərb dəhlizinin önəmli hissəsidir. Son illər bu dəhliz yolu ilə yüklərin həcmi daha da artır.

Ancaq İkinci Qarabağ savaşından sonra biz yeni bir dəhliz üzərində çalışırıq - Zəngəzur dəhlizi. Artıq beynəlxalq müstəvidə də bunun adı məhz Zəngəzur dəhlizi kimi təsbit edildi. Bu da Türkiyə ilə Azərbaycan arasında yeni bir bağlantını təmin edəcək.

Bildiyiniz kimi, müharibədən sonra ilk mərhələdə Ermənistan bu məsələ ilə bağlı öz etirazını bildirmişdir. Ancaq son vaxtlar mənə məlumat verilir ki, Ermənistan tərəfi də artıq bu dəhlizin qaçılmaz olması ilə bağlı məsələləri düzgün təhlil edir. Bildiyiniz kimi, indi üçtərəfli çərçivədə müzakirələr aparılır. Azərbaycan, Rusiya, Ermənistan Baş nazirlərinin müavinləri səviyyəsində işçi qrup çərçivəsində bu məsələ müzakirə edilir və yaxşı nəticələr də var.

Biz artıq azad edilmiş torpaqlarda Horadizdən Ermənistan sərhədinə qədər dəmir yolunun çəkilişinə start verdik. Əminəm ki, yaxın iki il, bəlkə iki il yarım ərzində o dəmir yolu tam istismara veriləcəkdir.

Naxçıvan dəmir yolunun böyük hissəsi fəaliyyətdədir və çatışmayan hissə də inşa ediləcək, bütün təlimatlar verilib. Ermənistan ərazisində Zəngəzur dəhlizinin önəmli hissəsi inşa edilməlidir. Beləliklə, yeni bir dəhliz açılacaq və Türkiyə-Azərbaycan arasında bu bağlantı daha da möhkəm olacaqdır.

Bütün digər məsələlər də var. Hansılar ki, siz öz həmkarınızla müzakirə edəcəksiniz. Bütövlükdə, deyə bilərəm ki, bu sahə həm Türkiyə, həm Azərbaycan üçün çox böyük önəm daşıyır, xalqlarımızı bir-birinə bağlayan sahədir. Əminəm ki, səfər çərçivəsində gündəlikdə olan bütün məsələlər müzakirə olunacaq və qərarlar qəbul olunacaq. Bir daha xoş gəlmisiniz.

❖ ❖ ❖

Nazir **Adil KARAİSMAİLOĞLU** dedi:

- Təşəkkür edirəm. Sağ olun. Bizi qəbul etdiyiniz üçün bir daha təşəkkür edirəm. Hörmətli Prezidentimizin də Sizə çoxlu salamı var.

Dünən Çamlıca qülləsinin açılışını etdik, orada bir yerdə idik. Bilirsiniz, Çamlıca qülləsində Azərbaycan bayrağını dalğalandırmışdıq. Türkiyədə, bütün dünyada çox böyük rəğbət oyatmışdı, çox gözəl olmuşdu. Canımız, dostumuz Azərbaycan hər zaman bizim qardaşımız, bizim vətənimizdir. Sizin uğurlarınızı həmişə bizim uğurlarımız olaraq gördük. İnşallah, bundan sonra cənab Prezidentimizin və Zatialinizin liderliyi ilə daim dost olaraq bütün dünyaya səsimizi eşitdirəcəyik.

Qardaşlarımız bizə gəlmişdilər, layihələrimizi müzakirə etmişdik. İnşallah, bu minvalla Sizin də göstərişinizlə bütün layihələrimizi bir-bir yerinə yetirəcəyik.

*Ardı 2-ci səh.*

# Yeni Qarabağın baş qurucusu



**Həmişə Bakıdan səfərə çıxanda "Ağdama gedirik" desək də, əslində, Ağdamın Quzanlı qəsəbəsinə getmişik...**

**Bu dəfə isə, həqiqətən, Ağdam şəhərinə gedirdik!**

**Ulu Tanrıya dua edə-edə...**

**Bizə bu xoşbəxtliyi nəsib edən Müzəffər Ali Baş Komandan İlham Əliyevə dərin təşəkkür və minnətdarlıq duyğuları ilə!..**

**Həm də qeyri-adi bir məramla...**

**Yeni tikiləcək Ağdam şəhərinin təməlqoyma mərasimində iştirak edəcəkdik!**

*Bəzən insan uzun illər həsrətini çəkdiyi xoşbəxtliyə qovuşanda səadət duyğularından başı gicəllənir, istəyinə yetdiyinə inanmaqda çətinlik çəkir...*

*Doğrudanmı biz öz Ağdamımıza gedirik?!*

*28 il həsrətini çəkdiyimiz, uzaqdan yana-yana, qovrula-qovrula baxdığımız Ağdama!..*

Hamımıza belə bir hiss hakim kəsilmişdi!

❖ ❖ ❖

Yolboyu sevinc hissi bizi tərk etmirdi.

Mühəndislərin söylədiyi kimi, birincidərəcəli rahat asfalt yolla maşınımız şütüyürdü.

Pəncərədən isə bizə çoxdan tanış olan, gözümüzün öyrəşdiyi mənzərəni seyr edirdik.

Arabir mobil telefona nəzər salır, yeni baş verən hadisələri də öyrənirdik.

**Yenidən tikilib qurulan, öz gözəlliyi ilə turistləri və qonaqları heyran qoyan qədim və gözəl Bakımızı tərk edirik.**

Əbəs yerə mayı ayların gözəli saymırlar.

Bu ayda yenidən canlanan təbiət ən gözəl libasını geyinərək bəzənir, ağaclar yaşıl dona bürünür, çöl-çəmən laləzara çevrilir.

*Müstəqillik dövründə böyüməyən, genişlənib abadlaşmayan kənd və qəsəbə, rayon mərkəzləri qalmayıb.*

*Yolboyu onlara fərəhlə, razılıqla tamaşa edirik.*

*Hamı özünə yeni, yaraşıqlı, hər bir rahatlığı olan ev tikib, güzəran qurub.*

*Elə kəndlərimiz var ki, insanlarımız ikimərtəbəli evlərlə qane olmayıblar, özlərinə üçmərtəbəli "villa"lar tikdiriblər.*

**Getdiyimiz yol da, bizi sürətlə aparan "Mersedes" markalı avtobus da, seyr etdiyimiz abad, yaraşıqlı yaşayış məntəqələri də, cibimizdəki mobil telefon da, hətta gözəl Qarabağın azadlığa qovuşması da müstəqilliyimizin bəhrəsidir.**

**Dövlət müstəqilliyimiz, onun sayəsində təbii sərvətlərimizə sahib çıxmağımız belə bir güzəran qurmağa şərait yaradıb!**

**Ən əsası dövlətimiz milli maraqları təmin edən uğurlu siyasət yeridib, dövlət başçısı daim vətəndaşlarının yanında olub, onların arzu və istəklərini gerçəkləşdirib.**

❖ ❖ ❖

Bəli, müstəqillik gözəl, əvəzsiz nemətdir.

Ancaq onun şirin bəhrəsindən doyunca dada bilməmişdik.

30 il bundan əvvəl özlərini Xalq Cümhuriyyətinin varisləri kimi bu müstəqilliyi Konstitusiya aktı şəklində bəyan edənlər yalnız müstəqil dövlət olduğumuzu ucadan söyləmişdilər!

Vəssalam!

*Müstəqil ölkəmizi inkişaf etdirəcək iqtisadiyyatımız, bu respublikanı dünya dövlətləri sırasına çıxaracaq siyasətimiz, yeni dövləti qorumağa qadir ordumuz, ölkə daxilində həmrəylik, barış və intibah yaradan daxili siyasətimiz, gələcəklə bağlı aydın və uzaqgörən proqramlarımız yox idi!*

Ölkəyə başçılıq edənlərin bir qismi Azərbaycanın SSRİ tərkibində qalması barədə referendum keçirir, başqa bir qrup hakimiyyət hərisi isə iqtidara gəlmək, şəxsi maraqlarını təmin etmək barədə düşünərək anarxiya və başıpozuqluq yaradırdı.

Sadə xalq isə torpağını necə qoruyacağını, düşməndən nə sayaq müdafiə olunacağını, dərdini kimə deyərək kimdən əlac umacağını kəsdirə bilmirdi...

1918-ci ildə - Xalq Cümhuriyyətinin qurulduğu dövrdə Azərbaycanın torpaqları hesabına özlərinə dövlət quran ermənilər isə yaranmış vəziyyətdən istifadə edərək yeni ərazilərimizi ələ keçirmək üçün "miatsum" hərəkatına başlamışdılar.

Onlar havadarlarına arxalanaraq əməli addımlar atırdılar.

**Həqiqi rəhbərindən, dünya şöhrətli siyasətçi və dövlət xadimi Ulu Öndər Heydər Əliyevdən ayrı düşən Azərbaycan xalqı isə bu mürəkkəb situasiyadan qurtulmaq, baş verənlərdən baş açıb kimə güvənəcəyini kəsdirə bilmirdi.**

*Ardı 4-cü səh.*

## Azərbaycan və Türkiyə prokurorluq orqanları arasında əməkdaşlıq genişlənir



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 30-da Türkiyə Respublikası Ali Məhkəməsinin baş prokuroru Bəkir Şahinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

AZƏRTAC xəbər verir ki, Ali Məhkəmənin baş prokuroru Bəkir Şahin Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarını dövlətimizin başçısına çatdırdı. Prezident İlham Əliyev Türkiyə dövlətinin başçısının salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Türkiyə Prezidentinə çatdırmağı xahiş etdi.

Görüşdə Azərbaycan ilə Türkiyə arasında dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə uğurla inkişaf etdiyi vurğulandı, prokurorluq orqanlarının həyata keçirdiyi əməkdaşlığın bu münasibətlərin inkişafı baxımından önəmi qeyd olundu.

Söhbət zamanı Türkiyənin bu sahədəki təcrübəsinə toxunuldu, Azərbaycanda prokurorluq sahəsində aparılan islahatlardan danışıldı.

Görüşdə əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.

◆ **1 İyun Uşaqların Beynəlxalq Müdafiəsi Günüdür**

## Doğulmadan şəhid övladı olmaq nəsibi...

Uşaq hüquqları və onların qorunması ilə bağlı rəsmi sənədləri və qanunları araşdıranda internetdə qarşıma bir videomaterial çıxdı. Atası müharibədə şəhid olan balaca qız onun dəfn mərasimində iştirak edir. Çəlimsiz qolları ilə atasının çərçivədə, bəlkə də son şəklini sıxıb sinəsinə. Sarsılmış simasından nisgil, kədər göz yaşlarına qarışıb solğun yanaqları boyu süzülür. Qızcığaz açıq məzara tərəf əyilib. Atasının nəşi məzara qoyulub, üstünə torpaq atırlar.



*Ardı 5-ci səh.*

# Yeni dəhliz açılacaq

## Türkiyə-Azərbaycan arasında bu bağlantı daha da möhkəm olacaq





*Əvvəli 1-ci səh.*

Sabah da tikinti meydançalarına gedib iş adamlarımızın gördükləri işləri yoxlayacaq, onların işləri sürətləndirməsi və düzgün yerinə yetirmələri ilə bağlı tapşırıqlarımızı verəcəyik. İnşallah, bu birliyimiz əbədi davam edəcək.

Biz də dəmir yolu məsələsində çalışırıq, Prezidentimizə də məlumat verdik. Xüsusilə Naxçıvan ilə Qars arasındakı, Qars-Aralık-Dilucu arasındakı layihələrimizi yekunlaşdırmışdıq. İnşallah, onları da bir proqram şəklində hazırlayıb bu dəmir yolunu - Naxçıvan ərazisindən yeni bir dəhlizin inşasını birlikdə həyata keçirəcəyik.

Dostlarımızla toplantılarımızı keçirəcəyik. Qardaşlarımızın işi bizim işimizdir. İnşallah, hamımız birlikdə əl-ələ verərək gözəl işlərə imza atacağıq.

❖ ❖ ❖

Prezident İlham Əliyev Prezident Rəcəb Tayyib Ərdoğanın salamlarına görə təşəkkürünü bildirdi, onun da salamlarını Türkiyə Prezidentinə çatdırmağı xahiş etdi.

❖ ❖ ❖

Sonra nazir Adil Karaismailoğlu Prezident İlham Əliyevə xatirə hədiyyəsi olaraq qılınc təqdim etdi.

**Prezident İlham ƏLİYEV:** Çox təşəkkür edirəm. Bu, barış xəncəridir.

**Nazir Adil KARAİSMAİLOĞLU:** Əlbəttə, barış üçün də lazımdır.

**Prezident İlham ƏLİYEV:** Bu, lazımdır.

**Nazir Adil KARAİSMAİLOĞLU:** Bunu görüncə sülh də olur.

# Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Möhtərəm cənab Prezident!

Azərbaycanın müstəqilliyinin 103-cü ildönümü bayramı - Respublika Günü münasibətilə Sizə və bütün Azərbaycan xalqına Vyetnam dövləti və xalqı adından səmimi təbriklərimi çatdırmaq istərdim.

Azərbaycanın yaxın dostu olan Vyetnam Sizin gözəl ölkənizin inkişafını daim diqqətlə izləyir və zati-alinizin rəhbərliyi ilə Azərbaycan xalqının ölkənin inkişafında, insanların rifahının yüksəldilməsində, beynəlxalq inteqrasiyada, həmçinin Azərbaycanın regionda və dünyada rolunun və mövqeyinin möhkəmlənməsində, COVID-19 pandemiyasının yaratdığı çətinliklərin mərhələli şəkildə inamla aradan qaldırılmasında əldə etdiyi böyük nailiyyətlərə heyran olduğunu bildirir.

Mən Vyetnam ilə Azərbaycan arasında ənənəvi dostluğun və hər iki ölkənin regionda və beynəlxalq arenada mövqeyinin möhkəmlənməsinə töhfə verən çoxtərəfli əməkdaşlığın daha da inkişafına çox şadam.

Mən qəti əminəm ki, iki ölkənin rəhbərlərinin iradəsi və qətiyyəti, habelə iki xalqın həmrəyliyi sayəsində ölkələrimizin və xalqlarımızın tərəqqisi, bütün dünyada sülh və inkişaf naminə Vyetnam və Azərbaycan arasında ənənəvi əməkdaşlıq gündən-günə möhkəmlənəcək və genişlənəcək.

Azərbaycana firavanlıq, xalqınıza xoşbəxtlik arzulayıram.

Cənab Prezident, icazə verin, Sizə möhkəm cansağlığı, səadət və nəcib vəzifənizdə böyük uğurlar diləyim.

*Hörmətlə,*

***Nquen Suan FUK,***
***Vyetnam Sosialist Respublikasının Prezidenti***

Hörmətli cənab Prezident!

Azərbaycanın milli bayramı - 28 May - Respublika Günü münasibətilə Monteneqro xalqı adından və şəxsən öz adımdan Sizə səmimi təbriklərimi, ölkənizin daha da inkişafı və dost Azərbaycan xalqının rifahı naminə ən xoş arzularımı çatdırıram.

Cənab Prezident, Monteneqro ilə Azərbaycan arasında dostluq münasibətləri möhkəmlənir, o cümlədən əməkdaşlıq, anlaşma və qarşılıqlı faydalı münasibətlər dərinləşir. COVID-19 pandemiyasının yaratdığı çətinliklərə baxmayaraq, əməkdaşlıq və qarşılıqlı dəstək də güclü olub. Ümid edirəm ki, epidemioloji şəraitin sabitləşməsi bizim təmaslarımızı davam etdirmək, eləcə də Monteneqro ilə Azərbaycan arasında dövlətlərarası tərəfdaşlıq əlaqələrinin, həmçinin xalqlarımızın dostluq münasibətlərinin möhkəmləndirilməsinə təkan verəcək yeni görüşlərin təşkilinə əlverişli imkan yaradacaq.

Zati-aliləri, Azərbaycan ilə daha da uğurlu əməkdaşlıq edəcəyimizə əminəm.

Sizə olan ən yüksək ehtiramımı və xoş arzularımı qəbul etməyinizi xahiş edirəm.

***Milo CUKANOVİÇ,***
***Monteneqronun Prezidenti***

Azərbaycanın milli bayramı - Respublika Günü münasibətilə zati-alinizə Tunis xalqı adından və şəxsən öz adımdan səmimi təbriklərimi və xoş arzularımı çatdırmaqdan məmnunluq duyuram. Sizə möhkəm cansağlığı, xoşbəxtlik, qardaş Azərbaycan xalqına isə davamlı tərəqqi və rifah arzulayıram.

Bu xoş fürsətdən istifadə edərək qardaş xalqlarımızın maraqları naminə ölkələrimiz arasındakı əməkdaşlıq əlaqələrini daha da inkişaf etdirmək üçün Sizinlə birgə işləməyə sadiq olduğumuzu bir daha təsdiq edirəm.

***Kays SAYİD,***
***Tunis Respublikasının Prezidenti***

Əziz qardaşım, hörmətli cənab Prezident!

Nikaraqua Respublikasının xalqı, Barışıq və Milli Birlik Hökuməti adından və şəxsən öz adımızdan Sizə, Azərbaycan xalqına və hökumətinə müstəqilliyinizin 103-cü ildönümü - 28 May - Respublika Günü münasibətilə ən səmimi təbriklərimizi çatdırırıq.

Bu əlamətdar gündə dövrümüzün çağırışları ilə mübarizə aparmaq, qarşılıqlı hörmət, həmrəylik və əməkdaşlıq prinsiplərinə əsaslanan daha çoxtərəfli bir dünya qurmaq naminə Sizinlə və hökumətinizlə əl-ələ verərək çalışmaqda davam etmək niyyətimizi bildirməkdən qürur duyuruq.

Daim müstəqil və azad Nikaraqua olaraq qardaş Azərbaycan xalqını səmimi qəlbdən təbrik edir və ona bütün nikaraqualıların sevgisini çatdırırıq.

***Daniel Orteqa SAAVEDRA,***
***Nikaraqua Respublikasının Prezidenti,***
***Rosario MURİYO,***
***Nikaraqua Respublikasının vitse-prezidenti***

Hörmətli cənab Prezident!

Azərbaycanın milli bayramı - 28 May - Respublika Günü münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirik.

Həqiqətən, uzun müddətdən sonra ilk dəfədir ki, Azərbaycan bu gözəl milli bayramı bütün ərazisində azad şəkildə qeyd edir. Bu, hər kəsə milli birliyə yenidən qovuşmaq imkanı verən çox mühüm hadisədir.

Çox təəssüf ki, Fransa hökuməti müxtəlif tarixi hadisələrə, xüsusilə Qarabağın işğalı ilə bağlı məsələyə münasibətdə Azərbaycanın gözlədiyi cavabı vermədi.

Bundan əlavə, bəzi erməni dairələrinin təsiri altında olan çoxsaylı Fransa KİV-i Azərbaycandakı vəziyyətlə bağlı reallığı təhrif edirlər. Məhz buna görə ölkələrimiz və xalqlarımız arasında əlaqələri qoruyub saxlamaq, münasibətlərimizin inkişafına töhfə vermək bizim üçün indi həmişəkindən daha vacibdir.

Tezliklə böyük xalqlarımızı yenidən yan-yana görmək ümidi ilə bu əlamətdar gündə Sizə, Fransanın tarixi dostu olan Azərbaycan xalqına firavanlıq və uğurlar arzulayırıq.

Cənab Prezident, ölkələrimizin yaxınlaşması üçün Sizinlə əməkdaşlıq etməyə sadiq qaldığımızı bildirərək, ən yüksək ehtiramımızı qəbul etməyinizi xahiş edirik.

***Loran Pultyedü MESNİL,***
***Fransa-Azərbaycan Dialoqu Assosiasiyasının vitse-prezidenti***

Möhtərəm cənab Prezident.

Qarabağ müharibəsində qazanılmış zəfərin sevinci və qüruru ilə Sizi və Azərbaycan xalqını "COJEP INTERNATIONAL" təşkilatı adından, şəxsən öz adımdan 28 May - Respublika Günü münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

Şanlı Azərbaycan bayrağı bu il mayın 28-də işğaldan azad edilən torpaqlarda da dalğalanır. Can Azərbaycanın yaşadığı bu tarixi dövr türk dünyası üçün yeni bir nəfəs olub.

Azad Azərbaycanın müstəqilliyi əbədi olsun. Azərbaycanın müstəqilliyinin əbədi olması, haqq işinin bütün dünyaya çatdırılması, beynəlxalq platformalarda can Azərbaycanın mövqelərinin möhkəmlənməsi üçün "COJEP INTERNATIONAL" təşkilatı olaraq bundan sonra da daim yanınızda olacağıq.

Zati-aliləri, "COJEP INTERNATIONAL" təşkilatı adından və şəxsən öz adımdan dərin hörmət və ehtiramımızla Sizə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya, can Azərbaycan xalqına ən səmimi təbriklərimizi çatdırırıq.

Üç rəngli bayrağınla məsud yaşa, can Azərbaycan.

***Ali GEDİKOĞLU,***
***Fransanın Strasburq şəhərindən "COJEP INTERNATIONAL" təşkilatının prezidenti***

# Azərbaycan Ümumdünya Səhiyyə Təşkilatı ilə olduqca səmərəli əməkdaşlıq edir

Ümumdünya Səhiyyə Təşkilatının əsas qərarverici orqanı olan Ümumdünya Səhiyyə Assambleyasının "Pandemiyaya son qoyaraq növbəti pandemiya təhlükəsinin qarşısının alınması: birlikdə daha sağlam, təhlükəsiz və ədalətli dünyanın qurulması" mövzusuna həsr edilmiş 74-cü sessiyası 2021-ci il mayın 24-dən 31-dək virtual şəkildə keçirilib.



AZƏRTAC xəbər verir ki, Ümumdünya Səhiyyə Təşkilatının Baş direktoru Tedros Adhanom Qebreyesusun dəvəti əsasında mayın 31-də sessiyanın bağlanış mərasimində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin videoformatda çıxışı təqdim edilib.

Qeyd edək ki, sessiyanın bağlanış mərasimində xüsusi qonaq qismində Azərbaycan, Qazaxıstan, Əfqanıstan, Argentina, Malayziya, Avstraliya və Butanın dövlət və hökumət başçıları çıxış ediblər.

Ümumdünya Səhiyyə Assambleyasının prezidenti xanım Deçen Vanqmo dedi:

- Hörmətli nümayəndələr, indi isə Assambleyaya müraciət edəcək yüksəksəviyyəli qonağımızı salamlamaqdan şərəf hissi duyuram. Sözü Azərbaycan Respublikasının Prezidenti zati-aliləri İlham Heydər oğlu Əliyevə verməkdən məmnunluq hissi keçirirəm.

## Prezident İlham Əliyevin çıxışı

- Hörmətli cənab Baş direktor.

Hörmətli tədbir iştirakçıları.

İlk növbədə, davam etməkdə olan COVID-19 pandemiyası ilə əlaqədar qlobal səhiyyə gündəliyi üçün olduqca çətin bir dönəmdə baş tutan Ümumdünya Səhiyyə Assambleyasının 74-cü sessiyasında çıxış etməklə bağlı dəvətə görə minnətdarlığımı bildirmək istərdim.

Azərbaycan Ümumdünya Səhiyyə Təşkilatının pandemiyaya qarşı qlobal mübarizənin əlaqələndirilməsi də daxil olmaqla, qlobal səhiyyə sahəsində idarəçiliklə bağlı aparıcı rolunu və səylərini dəstəkləyir.

Pandemiyanın lap ilk günlərindən Azərbaycanda COVID-19-un əhaliyə mənfi təsirinin minimuma endirilməsi və vəziyyətin nəzarətdə saxlanılması ilə bağlı praktiki tədbirlər həyata keçirilmişdir. Qısa zaman ərzində 13 modul tipli və 1 daimi xəstəxana inşa edilmişdir. Ölkədə COVID xəstələrinin müalicəsi üçün müəyyən edilmiş xəstəxana çarpayılarının toplam sayı 10 mindən artıqdır.

Bununla yanaşı, COVID-in mənfi təsirinə məruz qalmış ölkə vətəndaşlarını və sahibkarlıq subyektlərini dəstəkləmək məqsədilə təxminən 2 milyard ABŞ dolları həcmində sosial-iqtisadi təşviq paketi təqdim edilmişdir.

Ölkəmizdə görülmüş müfəssəl tədbirlər nəticəsində karantin rejimi tədricən yumşaldılmışdır.

Biz cari ilin yanvar ayının ortalarından etibarən peyvənd kampaniyasına başlamışıq və artıq 99.94 faizi "Sinovak", qalanı isə "AstraZeneca" və "Sputnik" olmaqla, 2 milyon doza peyvənd istifadə edilmişdir. Bu rəqəm əhalimizin 20 faizini təşkil edir. 18 yaşdan yuxarı bütün vətəndaşlar könüllü olaraq peyvənd oluna bilərlər. Peyvənd olunanlara COVID-19 pasportları təqdim edilir.

Biz 2021-ci ilin "Səhiyyə işçiləri ili" elan edilməsini alqışlayırıq.

Azərbaycan Ümumdünya Səhiyyə Təşkilatı ilə olduqca səmərəli əməkdaşlıq edir. Ötən il Ümumdünya Səhiyyə Təşkilatı Azərbaycanı pandemiya ilə mübarizə sahəsində nümunəvi ölkə adlandırmışdır.

Azərbaycan pandemiyanın öhdəsindən gəlmək üçün həmişə güclü qlobal həmrəyliyin nümayiş etdirilməsinin əhəmiyyətini təbliğ etmişdir. Azərbaycan Qoşulmama Hərəkatının sədri qismində bir sıra qlobal təşəbbüslərlə çıxış etmişdir. Bu sırada Qoşulmama Hərəkatının 2020-ci ilin may ayında təşkil edilmiş Zirvə toplantısını və 2020-ci ilin dekabr ayında 150-dən artıq dövlətin dəstəyi ilə keçirilmiş BMT Baş Assambleyasının dövlət və hökumət başçıları səviyyəsində Xüsusi Sessiyasını ayrıca qeyd etmək olar.

Azərbaycan Ümumdünya Səhiyyə Təşkilatına 10 milyon ABŞ dolları həcmində könüllü maliyyə töhfəsi etmişdir. Bununla yanaşı, koronavirusla əlaqədar 30-dan artıq ölkəyə humanitar və maliyyə yardımı göstərilmişdir.

Azərbaycan bəzi ölkələr tərəfindən ehtiyaclarından bir neçə dəfə artıq peyvənd əldə edilməsini və inkişaf etməkdə olan ölkələri öz əhalisini qorumaq imkanından məhrum etmələrini ictimai şəkildə pisləmişdir. Davam edən "peyvənd millətçiliyi", inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr arasında peyvəndlərə çıxışla bağlı getdikcə dərinləşən qeyri-bərabərlik narahatlıq doğurur. Beynəlxalq hesabatlara əsasən, bu günə qədər dünyada mövcud olan peyvənd dozalarının 82 faizi zəngin ölkələr tərəfindən alınmış, peyvəndlərin yalnız 0.3 faizi azgəlirli ölkələrin payına düşmüşdür.

Bu problemin həlli məqsədilə Azərbaycan Qoşulmama Hərəkatı adından BMT-nin İnsan Hüquqları Şurasında bütün ölkələrin peyvəndlərə bərabər və universal çıxışının təmin edilməsi ilə bağlı qətnamə irəli sürmüş və həmin qətnamə cari ilin mart ayında yekdilliklə qəbul olunmuşdur.

Bu xüsusda biz inkişaf etmiş ölkələri və donor təşkilatlarını inkişaf etməkdə olan, xüsusilə ən az inkişaf etmiş ölkələrə dəstək verməyə çağırırıq.

Təşəkkür edirəm.

# Ağdam və Tərtər rayonlarında əkin sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılmasına və əhalinin içməli suya tələbatının ödənilməsinə dair əlavə tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Ağdam və Tərtər rayonlarının əhalisi 25950 nəfər olan 18 yaşayış məntəqəsində (siyahı əlavə olunur) əkin sahələrinin və əkin üçün istifadə olunan həyətyanı torpaq sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılması, habelə əhalinin içməli suya tələbatının ödənilməsi üçün 20 ədəd subartezian quyusunun layihələndirilməsi və qazılması məqsədilə "Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.8.8-ci yarımbəndində göstərilmiş məbləğin 1,4 milyon (bir milyon dörd yüz min) manatı Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinə ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 31 may 2021-ci il*

# Baş nazir Əli Əsədov Türkiyənin Azərbaycanda yeni təyin olunmuş səfiri ilə görüşüb

Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov mayın 31-də Türkiyə Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Cahit Bağçı ilə görüşüb.



Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə Azərbaycan-Türkiyə münasibətlərinin bütün sahələrdə uğurla inkişaf etdiyi məmnunluqla vurğulanıb, qarşılıqlı faydalı əməkdaşlığın inkişaf perspektivləri müzakirə edilib.

Baş nazir Türkiyə səfirinə Azərbaycandakı fəaliyyəti müddətində uğurlar arzulayıb.

## Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 31 may tarixli Sərəncamına Əlavə

# Ağdam və Tərtər rayonlarında qazılması nəzərdə tutulan subartezian quyularının yaşayış məntəqələri üzrə bölgüsünə dair siyahı

| Sıra №-si | Rayonun adı | Quyuların sayı, ədəd | Yaşayış məntəqələrinin adı | Əhalinin sayı, nəfər |
|---|---|---|---|---|
| 1. | Ağdam | 10 | Bəybabalar kəndi | 88 |
| | | | Çəmənli kəndi | 3463 |
| | | | Ergi massivi (3 quyu) | 1151 |
| | | | Quzanlı qəsəbəsi | 3287 |
| | | | Mahrızlı kəndi | 1958 |
| | | | Paşabəyli kəndi | 764 |
| | | | Səfərli qəsəbəsi | 1017 |
| | | | Təzəkənd kəndi | 445 |
| 2. | Tərtər | 10 | Bayandur kəndi | 680 |
| | | | Evoğlu kəndi | 2310 |
| | | | Əksipara kəndi | 1205 |
| | | | Hacıqərvənd kəndi | 2925 |
| | | | İrəvanlı kəndi | 1072 |
| | | | İsmayılbəyli kəndi | 1607 |
| | | | Qaynaq kəndi | 1916 |
| | | | Şıxarx qəsəbəsi | 476 |
| | | | Yuxarı Sarıcalı kəndi | 1204 |
| | | | Zolgəran kəndi | 382 |
| **Cəmi:** | | **20** | **18** | **25 950** |

Milli Məclisin iclasında

# Parlament yaz sessiyasını başa vurdu

Mayın 31-də spiker Sahibə Qafarovanın sədrliyi ilə Milli Məclisin yaz sessiyasında sonuncu plenar iclası keçirildi. Öncə 6 məsələdən ibarət gündəlik təsdiqləndi. Cari məsələlərin müzakirəsində komitə sədrləri Qənirə Paşayeva, Bəxtiyar Əliyev, Zahid Oruc, deputatlardan Fazil Mustafa, Hikmət Məmmədov, Azay Quliyev, Elşad Mirbəşir oğlu, Bəhruz Məhərrəmov, Cavid Osmanov bir sıra məsələlərlə bağlı fikirlərini bildirdilər.




Plenar iclasda ilk olaraq "Azərbaycanın mədəniyyət paytaxtı - Şuşa şəhəri haqqında" qanun layihəsi (üçüncü oxunuş) müzakirəyə çıxarıldı. Parlamentin Mədəniyyət komitəsinin sədri Qənirə Paşayevanın məlumatı dinlənildikdən sonra deputatlar Qüdrət Həsənquliyev, Fəzail Ağamalı, Aydın Mirzəzadə rəy və təkliflərini bildirdilər. Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Ziyafət Əsgərov layihədə deputatları maraqlandıran bəzi məqamlara aydınlıq gətirdi. Komitə sədri Qənirə Paşayeva sualları cavablandırdıqdan sonra qanun layihəsi səsə qoyularaq üçüncü oxunuşda qəbul edildi.

"Elektrik enerjisi istehsalında bərpa olunan enerji mənbələrindən istifadə haqqında" Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş) barədə parlamentin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Sadiq Qurbanov məlumat verdi. 5 fəsil 20 maddədən ibarət olan qanun layihəsi üçüncü oxunuşda qəbul olundu.

"Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Qanununun layihəsini (üçüncü oxunuş) isə Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Kamal Cəfərov təqdim etdi. Müzakirələr zamanı deputatlardan Qüdrət Həsənquliyev, komitə sədri Siyavuş Novruzov fikirlərini bildirdilər. Qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

Gündəlikdəki növbəti məsələ "Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsinin icrası haqqında" Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş) idi. İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin rəyini parlamentə təqdim edən komitənin sədri Tahir Mirkişili öncə 2020-ci ilin Azərbaycanın Ermənistan işğalçıları üzərində qazandığı möhtəşəm hərbi-siyasi-iqtisadi Qələbə ili olduğuna diqqət yönəltdi, COVID-19 pandemiyasının dünya miqyasında yaratdığı problemlərə toxundu. Bildirdi ki, müharibə xərcləri, şəhid ailələrinə, əsgər və zabitlərə qayğının artırılması, sosial dəstək proqramlarının icrası, səhiyyə sisteminin gücləndirilməsi, işğaldan azad edilən ərazilərin bərpası, pandemiyadan əziyyət çəkən sahibkarların dəstəklənməsi 2020-ci il dövlət büdcəsinin icrası qarşısında dayanan mühüm hədəflərdən olub.

Komitə sədri nəzərə çatdırdı ki, 2020-ci ildə dövlət büdcəsinin gəlirləri 24 milyard 124 milyon manat proqnoza qarşı 24 milyard 681,7 milyon manat, yəni proqnozla müqayisədə 2,3 faiz çox icra olunub. Dövlət büdcəsinin xərcləri isə 27 milyard 492,2 milyon manat proqnoza qarşı 26 milyard 416,3 milyon manat icra edilib ki, bu da proqnozla müqayisədə 3,9 faiz az deməkdir. Bildirildi ki, dövlət büdcəsində yaranan kəsir proqnoza nisbətdə 2 dəfə az olub. Ötən il xarici və daxili dövlət borclanmaları üzrə icra vəziyyəti müəyyənləşdirilmiş limiti keçməyib.

Tahir Mirkişili vurğuladı ki, 2020-ci il dövlət büdcəsinin icrası Azərbaycan Prezidentinin müəyyənləşdirdiyi inkişaf və dəstək kursunun ardıcıl surətdə davam etdirilməsi, əsas dövlət və sosial vəzifələrin həyata keçirilməsi, əhalinin sosial müdafiəsinin yaxşılaşdırılması, ölkədə makroiqtisadi sabitliyin qorunması, müdafiə və təhlükəsizik məsələlərinin həlli və iqtisadiyyatın qorunaraq stimullaşdırılması istiqamətində öz müsbət rolunu oynayıb.

Müzakirələr zamanı komitə sədri Qənirə Paşayeva, deputatlardan Fazil Mustafa, Əli Məsimli, Fəzail Ağamalı, Qüdrət Həsənquliyev, Etibar Əliyev bir sıra təkliflərini hökumət üzvlərinin diqqətinə çatdırdılar.

"Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsinin icrası haqqında" qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

İclasda "Kredit ittifaqları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi də ikinci oxunuşda müzakirəyə təqdim olundu. Təklif olunan dəyişiklik ikinci oxunuşda məqbul sayıldı.

Gündəliyin sonuncu məsələsi olan Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş) barədə Milli Məclis sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli məlumat verdi. Bildirdi ki, qanun layihəsi gündəlikdəki 5-ci məsələ ilə üzvi surətdə bağlıdır. Kredit reyestrləri və kredit ittifaqları haqqında məlumatların verilməməsinə görə İnzibati Xətalar Məcəlləsində cərimə sanksiyaları nəzərdə tutulur.

Məlumat dinlənildikdən sonra qanun layihəsi ikinci oxunuşda qəbul olundu.

İclasa yekun vuran Milli Məclisin sədri Sahibə Qafarova dedi: "Bu gün yaz sessiyasının sonuncu iclasıdır. Konstitusiyanın 88-ci maddəsinin II hissəsinə uyğun olaraq, 81 deputat növbədənkənar sessiyanın çağırılması üçün mənə müraciət edib. Mən bu barədə sərəncam imzalamışam və iyun ayında bizim növbədənkənar sessiyamız olacaq".

Sonra deputatlara yaz sessiyasının yekunları barədə məlumat verən spiker qeyd etdi ki, 2021-ci ilin yaz sessiyasında Milli Məclisin 14 iclası keçirilib, 88 qanun və qərar, o cümlədən bir Konstitusiya qanunu qəbul edilib. Milli Məclis Konstitusiya ilə nəzərdə tutulan qanunvericilik səlahiyyətlərini tam həcmdə yerinə yetirib. Azərbaycan Prezidenti İlham Əliyevin uzaqgörən daxili və xarici siyasətini parlament səviyyəsində dəstəkləmək üçün bütün tədbirlər həyata keçirilib.

Yaz sessiyasının iclaslarında Milli Məclisdə Nazirlər Kabinetinin və Hesablama Palatasının illik fəaliyyətləri barədə hesabatların, İnsan alverinə qarşı mübarizə üzrə Milli Koordinatorun məlumatının, İnsan hüquqları üzrə müvəkkilin və bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirən orqanın illik məruzələrinin dinlənildiyini qeyd edən Milli Məclisin sədri Sahibə Qafarova vurğuladı ki, bütün dünyanın COVID-19-a qarşı mübarizə şəraitində yaşadığı hazırkı dövrdə pandemiyanın törətdiyi problemlərə baxmayaraq, Milli Məclisin normal iş ahəngi qorunub saxlanılıb, komitə və komissiyaların əksər iclasları videokonfrans formatında keçirilib, beynəlxalq əlaqələrin inkişafı sahəsində də işlər uğurla davam etdirilib.

Spiker Sahibə Qafarova Milli Məclisin 2021-ci il yaz sessiyasını bağlı elan etdi. Azərbaycanın Dövlət Himni səsləndirildi.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Milli Məclisin sədri Sahibə Qafarova Pakistanda səfərdədir

Milli Məclisin sədri Sahibə Qafarovanın başçılığı ilə parlament nümayəndə heyətinin Pakistan İslam Respublikasına işgüzar və rəsmi səfəri başlayıb. Mayın 31-dən başlayan səfər iyunun 4-dək davam edəcək.

Nümayəndə heyətinin tərkibinə Milli Məclisin komitə sədrləri Qənirə Paşayeva, Tahir Mirkişili, komitə sədrlərinin müavinləri Məlahət İbrahimqızı, Tahir Kərimli, deputat İlham Məmmədov, parlament Aparatının rəhbəri Səfa Mirzəyev və digər rəsmi şəxslər daxildir.

Səfər çərçivəsində nümayəndə heyəti ölkənin paytaxtı İslamabadda keçiriləcək İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Assambleyasının İkinci Ümumi Konfransında iştirak edəcək, tədbirdə müzakirə olunan məsələlərə Azərbaycan tərəfinin münasibətini bildirəcək. Konfransda Milli Məclisin sədri çıxış edəcək.

Burada Milli Məclis sədrinin tədbirdə iştirak edən nümayəndə heyətlərinin rəhbərləri ilə ikitərəfli görüşləri nəzərdə tutulub.

Pakistan tərəfinin dəvəti ilə iyunun 3-dən başlayacaq rəsmi səfər çərçivəsində parlamentin sədri Sahibə Qafarovanın Pakistan İslam Respublikasının Prezidenti, Baş naziri, Senatın sədri, Milli Assambleyanın spikeri və ölkəmizlə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvləri ilə görüşləri gözlənilir.

Səfər çərçivəsində baş tutacaq görüşlərdə parlamentlərarası əlaqələrin bu günü və gələcək inkişaf istiqamətləri, siyasi, iqtisadi, humanitar və digər sahələrdə əməkdaşlığımızın dərinləşməsi barədə fikir mübadiləsi aparılacaq.

***İlhamə İSABALAYEVA,***
***"Azərbaycan"***

# Mahmud VAEZİ: "Azərbaycan-İran əlaqələrinin inkişafı xalqlarımızın maraqlarına uyğundur"



Azərbaycan Respublikasının Baş nazirinin müavini, Azərbaycan ilə İran arasında iqtisadi, ticarət və humanitar sahələrdə əməkdaşlıq üzrə müştərək komissiyanın həmsədri Şahin Mustafayevin rəhbərlik etdiyi nümayəndə heyəti İrana səfəri çərçivəsində bu ölkənin Prezident Administrasiyasının rəhbəri Mahmud Vaezi ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, Şahin Mustafayev İran ilə əlaqələrin inkişaf etdirilməsinin Azərbaycanın xarici siyasətinin prioritet istiqaməti olduğunu bildirib. Qeyd olunub ki, son illər qarşılıqlı əlaqələr yüksələn xətlə inkişaf edir. Qarşılıqlı əməkdaşlıq əlaqələrinin yüksək səviyyəyə çatmasında hər iki ölkənin prezidentləri mühüm rol oynayıblar. Məhz prezidentlərin siyasi iradəsinin nəticəsidir ki, münasibətlərimiz müsbət istiqamətdə irəliləyir. Azərbaycan ilə İran arasında nəqliyyat, kənd təsərrüfatı, sənaye, turizm və digər sahələri əhatə edən əlaqələr mövcuddur. Bu əlaqələrin daha da inkişafı üçün hər iki ölkənin böyük potensialı var və bu potensialdan səmərəli istifadə edilməlidir.

Şahin Mustafayev diqqətə çatdırdı ki, koronavirus pandemiyasının yaratdığı çətinliklərə baxmayaraq, ticarət əlaqələri daha da genişləndiriləcək. Pandemiya dövründə ticarət əlaqələrinin və tranzit yükdaşımaların dayandırılmaması münasibətlərimizin xoşməramlı olduğunu nümayiş etdirir.

İranın Prezident Administrasiyasının rəhbəri Mahmud Vaezi nümayəndə heyətinin üzvlərini 28 May - Respublika Günü münasibətilə təbrik edərək bildirib ki, İran-Azərbaycan əlaqələri strateji səviyyəyə yüksəlib. Qarşılıqlı əməkdaşlıq əlaqələrinin möhkəmlənməsi hər iki xalqın maraqlarına uyğundur və bu münasibətlər ildən-ilə genişlənməlidir. Nəqliyyat və energetika sahələrində birgə layihələr var ki, onların da reallaşdırılması üçün işləri sürətləndirmək lazımdır.

Mahmud Vaezi vurğulayıb ki, İran hər zaman Azərbaycanın yanında olacaq və qarşılıqlı münasibətlərin inkişafı üçün bütün imkanlardan istifadə edəcək.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da geniş fikir mübadiləsi aparılıb.

SOCAR-ın prezidenti Rövnəq Abdullayev də görüşdə iştirak edib.

# Azərbaycanın Baş Prokurorluğu ilə Türkiyə Ali Məhkəməsinin Baş Prokurorluğu arasında memorandum imzalanıb

Türkiyə Respublikası Ali Məhkəməsinin baş prokuroru Bəkir Şahinin Azərbaycan Respublikasının baş prokuroru Kamran Əliyevin dəvəti ilə ölkəmizdə rəsmi səfəri çərçivəsində mayın 31-də Baş Prokurorluqda ikitərəfli görüş keçirilib.



AZƏRTAC xəbər verir ki, görüşdə ölkələrimiz arasında dostluq və əməkdaşlıq münasibətlərinin inkişafının dövlətlərimizin başçıları İlham Əliyev və Rəcəb Tayyib Ərdoğanın birgə ciddi səyləri və sarsılmaz siyasi iradələri sayəsində strateji tərəfdaşlıq səviyyəsinə yüksəldiyi, ikitərəfli münasibətlərin bir çox istiqamətlərdə uğurla inkişaf etdiyi xüsusilə qeyd olunub, tarixən xalqlarımızın milli köklərə söykənən bu münasibətlərin gələcəkdə də uğurla inkişaf etdiriləcəyi vurğulanıb.

Baş prokuror Kamran Əliyev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən məhkəmə-hüquq islahatları çərçivəsində prokurorluğun fəaliyyəti üçün zəruri normativ-hüquqi bazanın gücləndirilməsi, prokurorluq orqanlarının fəaliyyətinin hərtərəfli müasirləşdirilməsi, prokurorluğun strukturunun daha da təkmilləşdirilməsi, kadr korpusunun tamamilə yenidən formalaşdırılması istiqamətində aparılan köklü islahatlar, vətəndaşların hüquq və azadlıqlarının təmin edilməsi məqsədilə digər hüquq mühafizə orqanları ilə qarşılıqlı səmərəli əlaqələrin qurulması, həmçinin müasir dövrdə qarşıda duran digər vəzifələr barədə qonaqlara ətraflı məlumat verib.

Kamran Əliyev 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsinin ilk anlarından Türkiyə Respublikasının rəhbərliyi və xalqının ölkəmizə öz siyasi və mənəvi dəstəklərini nümayiş etdirdiyini minnətdarlıqla qeyd edib, işğaldan azad edilmiş ərazilərimizdə yenidənqurma və bərpa işlərində türk şirkətlərinin fəal iştirak etməsinin iki ölkə arasında mövcud strateji əməkdaşlığın təzahürü olduğunu vurğulayıb.

Səmimi qəbula görə təşəkkürünü bildirən nümayəndə heyətinin rəhbəri Bəkir Şahin ölkəmizi və xalqımızı qazanılmış qələbə münasibətilə təbrik edib, Vətən uğrunda canlarından keçmiş şəhidlərə rəhmət diləyib.

Bəkir Şahin təmsil etdiyi qurumun Azərbaycan ilə əlaqələrin inkişafına böyük önəm verdiyini bildirib. O, iki ölkə arasında mövcud iqtisadi, siyasi, sosial, mədəni əlaqələrin yüksək səviyyədə olmasını və bunun məntiqi nəticəsi kimi xalqlarımızın üzləşdiyi bütün məsələlərdə bir-birinə dəstək verəcəklərini xüsusi vurğulayıb.

Görüşdə hüquqi sahədə əməkdaşlıq üzrə faydalı fikir mübadiləsi aparılıb, qarşılıqlı səmərəli fəaliyyətin bundan sonra da uğurla davam etdiriləcəyinə əminlik ifadə olunub.

Baş prokurorlar ölkələrimiz arasında beynəlxalq hüquqi əməkdaşlığın gücləndirilməsi, mövcud əlaqələrin gələcəkdə daha da intensivləşdirilməsi, hüquqi əlaqələrin dərinləşdirilməsi məqsədilə anlaşma memorandumu imzalayıblar.

Mərasimdə ölkələrimiz arasında beynəlxalq hüquqi əməkdaşlıq, ekstradisiya, prokurorların təlimi və digər əhəmiyyətli sahələrdə əlaqələrin bundan sonra da uğurla davam etdiriləcəyinə əminlik ifadə olunub.

Tədbirdə baş prokuror Kamran Əliyev Türkiyə Ali Məhkəməsinin baş prokuroruna "Azərbaycan Prokurorluğunun 100 illiyi (1918-2018)" medalını təqdim edib.

Dövlətlərarası sənədlərin imzalanması mərasimindən sonra Kamran Əliyev və Bəkir Şahinin mətbuat konfransı olub və baş prokurorlar media nümayəndələrinin suallarını cavablandırıblar.

Nümayəndə heyəti daha sonra Baş Prokurorluğun Tarix muzeyi ilə tanış olub. Muzeydə Azərbaycan Prokurorluğunun zəngin tarixi, qardaş ölkələrimiz arasındakı münasibətləri əks etdirən ekspozisiyalar, eyni zamanda Ulu Öndər Heydər Əliyevin həyat və yaradıcılığına həsr olunan guşə və eksponatlar qonaqlarda zəngin təəssürat oyadıb.

# Heydər Əliyevin məzarını və Şəhidlər xiyabanını ziyarət

Azərbaycan tərəfinin dəvəti ilə Türkiyə Respublikasının nəqliyyat və infrastruktur naziri Adil Karaismailoğlunun rəhbərlik etdiyi nümayəndə heyəti ölkəmizdə səfərdədir.







Türk nümayəndə heyəti nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri Rəşad Nəbiyevlə birlikdə Fəxri xiyabanda Ulu Öndər Heydər Əliyevin və akademik Zərifə Əliyevanın məzarlarını, Şəhidlər xiyabanını, "Türk şəhidliyi" abidəsini ziyarət ediblər.

Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyindən AZƏRTAC-a bildirilib ki, qonaqlar Heydər Əliyev Mərkəzinə və Hərbi Qənimətlər Parkına da baş çəkiblər.

Sonra nümayəndə heyəti İçərişəhərdə tarixi-memarlıq abidələri ilə tanış olub.

Qeyd edək ki, iki ölkə nazirlərinin işğaldan azad edilmiş ərazilərdə icrasına başlanılan infrastruktur layihələri ilə yerində tanışlıq məqsədilə Füzuli və Xocavənd rayonlarına birgə səfərləri nəzərdə tutulub.

# Türkiyə Ali Məhkəməsinin baş prokurorunun Azərbaycana səfəri davam edir

Türkiyə Respublikası Ali Məhkəməsinin baş prokuroru Bəkir Şahinin Azərbaycan Respublikasının baş prokuroru Kamran Əliyevin dəvəti ilə ölkəmizə rəsmi səfəri davam edir.



Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, səfər çərçivəsində qonaqlar Heydər Əliyev Mərkəzi ilə tanış olublar.

Burada qonaqlara muzey və eksponatlar barədə ətraflı məlumat verilib.

Bəkir Şahinin rəhbərlik etdiyi nümayəndə heyəti həmçinin Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsinin inzibati binası ilə tanış olub.

Nümayəndə heyətinin üzvləri beynəlxalq tədbirlərin, mətbuat konfranslarının keçirilməsi üçün nəzərdə tutulmuş konfrans zalları, müasir hüquq ədəbiyyatı, normativ-hüquqi aktlarla zənginləşdirilən, digər dövlət qurumlarının elektron kitabxanalarına çıxışla təmin edilən kitabxana, müasir proqram təminatı ilə təchiz edilmiş "Qaynar xətt" əlaqə mərkəzi, digər dövlət qurumlarının məlumat bazalarına çıxışı olan informasiya-kommunikasiya şəbəkəsi və əməliyyatların idarə edilməsi mərkəzi ilə maraqlanıblar.

Qonaqlar Baş Prokurorluğun paytaxtın Binəqədi rayonu, Dərnəgül yaşayış sahəsindəki inzibati bina kompleksində də olublar.

Baş prokuror Kamran Əliyev prokurorluq əməkdaşlarının səmərəli fəaliyyəti üçün bütün imkanların yaradıldığı müasir inzibati bina kompleksi ilə bağlı nümayəndə heyətinin üzvlərinə ətraflı məlumat verib.





*Əvvəli 1-ci səh.*

# Yeni Qarabağın baş qurucusu

**Gözlənilənlər ən pis, ən ağır formada baş verdi: ermənilər nəinki Dağlıq Qarabağı, hətta ətrafındakı 5 rayonu da işğal edərək niyyətlərinə çatdılar!**

Xalqın etimadını doğrultmayan, torpaqların müdafiəsini təşkil edə bilməyən, ölkəni Vətəndaş müharibəsi həddinə çatdıran maymaq, qorxaq, səriştəsiz dövlət başçıları isə xalqın əli ilə iqtidardan qovuldular.

*Azərbaycan xalqı başqa bir istəyinə qovuşdu:*

*Ulu Öndər Heydər Əliyev yenidən ölkə rəhbərliyinə qayıtdı.*

*Ancaq, necə deyərlər, artıq iş-işdən keçmişdi...*

*Azərbaycan özü boyda problemlərin içində boğulurdu:*

- bir miyondan çox qaçqını və məcburi köçkünü yerləşdirmək, onların həyat və yaşayışını qaydaya salmaq;
- müharibədə atəşkəsə nail olaraq yeni ərazilərin işğalına imkan verməmək;
- Vətəndaş müharibəsinin alovlarını söndürmək, əhalidəki külli miqdarda silah-sursatı yığmaq, xaos və anarxiyanın qarşısını almaq;
- bazar iqtisadiyyatına keçidi şərtləndirən zəruri islahatlar aparmaq;
- milli maraqların təmin olunduğu neft müqavilələri imzalayaraq təbii sərvətlərdən istifadəni qaydaya salmaq;
- yeni iş yerləri yaradaraq xalqın güzəranının yüksəlməsinə nail olmaq;
- müstəqil dövlətçiliyin atributlarını yaratmaqla müstəqil daxili və xarici siyasət yürütmək;
- Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi barədə əsl həqiqətləri dünya ictimaiyyətinə çatdırmaq, məsələni sülh yolu ilə nizama salmaq və s. kimi problemlər təxirəsalınmaz həllini gözləyirdi!

**Bu qədər problemləri olan dövlətdə müstəqilliyin verdiyi imkanlardan bəhrələnmək mümkün idimi?!**

**Amma Ulu Öndər Heydər Əliyev mümkün olmayanları da mümkün etdi!**

Azərbaycan, sözün həqiqi mənasında, müstəqil xarici siyasət yeritməyə, əsaslı islahatlar keçirərək bazar iqtisadiyyatı prinsipləri ilə fəaliyyət göstərməyə başladı, dünya birliyinin bərabərhüquqlu üzvləri sırasında özünə yer aldı.

*Lakin ömür vəfa etmədi, Ulu Öndərimiz Qarabağ probleminin həllini siyasi varisi İlham Əliyevə saxlayaraq: "Mən ona özüm qədər inanıram və əminəm ki, mənim axıra çatdıra bilmədiyim məsələlərin həllinə nail olacaqdır" vəsiyyətini edərək ölməzliyə qovuşdu.*

❖ ❖ ❖

Bir qədər sonra keçiriləcək tarixi və unudulmaz görüşdə Müzəffər Ali Baş Komandan İlham Əliyev xilaskarı olduğu Qarabağın baş şəhəri sayılan Ağdamın Baş Planının təsdiqlənmə mərasimini niyə məhz 28 maya saldığını söyləyəcəkdi: "Mən hesab etdim ki, ən düzgün tarix bizim milli bayramımız olan Respublika Günüdür, Müstəqillik günüdür".

*Sonra bu fikrinə bir qədər də aydınlıq gətirəcəkdi: "Əgər biz güclü müstəqil dövlət qurmasaydıq, öz tarixi torpaqlarımızı işğalçılardan azad edə bilməzdik. Ancaq güclü Azərbaycan, müstəqil Azərbaycan, sözün əsl mənasında, müstəqil siyasət aparan Azərbaycan bu tarixi missiyanı şərəflə yerinə yetirdi".*

Hələlik isə keçmiş təmas xəttinə, ömrünü başa vurmuş cəbhə bölgəsinə yaxınlaşırdıq...

İllərlə həsrətini çəkdiyimiz Ağdamla yeni görüşə tələsirdik.

Mənfur düşmənlərimizin Ağdamda törətdikləri vəhşiliklərdən, kənd və qəsəbələri, şəhərləri viran qoyduqlarından, meşələri qırdıqları və təbii sərvətlərimizi talan etdiklərindən, hətta məscid və qəbiristanlıqları belə dağıtdıqlarından yaxşı xəbərdar idik.

Dəfələrlə televiziya ekranlarından bu qandonduran mənzərəni izləmiş, bir qismini gözlərimizlə görmüşdük.

Bəli, düşmən düşməndir!

Amma babalarımız da həmişə qarşılarında mərd düşmən olmasını istəmişlər.

Çünki özləri mərd olmuşlar, insanlarla döyüşmüşlər, qocadan, qadından, uşaqdan, daş-divardan qisas almağı özlərinə sığışdırmamışlar.

❖ ❖ ❖

28 ildən sonra "Dördyol" adlanan ərazidən Müzəffər Ali Baş Komandan İlham Əliyevin misilsiz şücaəti sayəsində düşməndən geri alınan Ağdamın ərazisinə daxil oluruq...

*Dərhal əhvali-ruhiyyəmiz dəyişir, içimizə qapılır, keçmiş günləri, qoyub gəldiyimiz Ağdamı yenidən xəyalımızda canlandırırıq.*

Yol yoldaşımız olan millət vəkili Aqil Abbasın "Dolu" romanında "Dünyanın ən varlı şəhəri" adlandırdığı Ağdamı...

Əcnəbilər bu mənzərəni atom bombası ilə dağıdılmış Xirosima şəhərinə bənzədirlər...

I Qarabağ müharibəsi dövründə əliyalın Ağdam camaatı və respublikanın hər yerindən onlara köməyə gələn igidlər sovet imperiyası tərəfindən silahlandırılan ermənilərə yaxşı toy tutmuş, ciddi tələfat yaşatmışdılar. Ancaq üstümüzə göndərilən nizami ordu ilə sonadək bacarmamışdılar...

Düşmən isə ağdamlıların hayfını onların məcburiyyət qarşısında tərk etdikləri vətənlərindən, daşından, torpağından, təbiətindən, ev-eşiyindən çıxmışdı...

*Əslində, gördüyümüz bu mənzərə faşist Ermənistanı ilə sülhpərvər, multikultural ənənələrə sahib Azərbaycan xalqı arasındakı mahiyyət fərqindən yaranmışdı.*

Və bizim bu səfərimizdə həm də düşmənin vandal əməli ilə xalqımızın sülhpərvər niyyətinin müqayisəsini görürdük.

Bu gün Ermənistan acınacaqlı durumdadır!

Döymədikləri qapı, yalvarmadıqları dövlət başçısı, yalamadıqları daban qalmadı.

**Amma nə havadarları, nə hələ də arxalarında dayanaraq sözlərini deyənlər onları Müzəffər Ali Baş Komandan İlham Əliyevin müqəddəs qəzəbindən, dəmir yumruğundan xilas edə bildi!**

**Ermənistan ordusu döyüş meydanında məhv edildi!**

**İlham Əliyev onları diplomatiya sahəsində, informasiya müharibəsində də təkbaşına rüsvayçı məğlubiyyətə uğratdı.**

**Yalnız Azərbaycan rəhbərinin qoyduğu şərtlər yerinə yetirildikdən sonra düşmənə aman verildi, hərbi əməliyyatlar dayandırıldı!**

**Ermənistan rəhbəri hansısa qaranlıq zirzəmidə gizlənərək kapitulyasiya sənədinə imza atdı!**

*Dəmir yumruğun zərbəsindən Ermənistan hələ də özünə gələ bilməyib.*

*Daxili didişmələr, dağılan iqtisadiyyat, aybaay artan xarici borc, əhalinin sürətli miqrasiyası bu dövləti çıxılmaz duruma salıb.*

*Əslində, Ermənistanı dövlət adlandırmaq da gülünc görünür.*

*Vassala və forposta çevrilən bu ölkənin sərhədlərini özgə əsgərləri qoruyurlar.*

*Strateji obyektləri başqalarına satılıb.*

*Hazırda Azərbaycan ərazisində qoyub getdikləri məğlub əsgərlərinin leşlərini axtarmaq, onları gizlincə dəfn etməklə məşğuldurlar.*

*Amma yenə də faşist xislətlərindən, qisasçılıq niyyətlərindən əl çəkmək istəmirlər.*

**Bəli, biz I Qarabağ müharibəsini uduzduq, torpaqlarımızı qoruya bilmədik.**

**Odur ki, viran qoyulmuş Ağdamın ürəkağrıdan mənzərəsini seyr etmək məcburiyyətindəyik!**

**Ancaq Tanrı bizə Heydər Əliyev kimi nadir şəxsiyyət, dövlət xadimi qismət etdi, o, bizi toparlandırdı!**

**Tanrı bizə İlham Əliyev kimi parlaq zəka sahibi, uzaqgörən, qətiyyətli sərkərdə bəxş etdi!**

**Müzəffər Ali Baş Komandan İlham Əliyev 44 günlük Zəfər müharibəsində torpaqlarımızı geriyə qaytardı, murdar düşməndən qisasımızı aldı!**

**Bu gün də onun qüdrətli dəmir yumruğu hazır vəziyyətdədir!**

**Düşmən başını qaldıran kimi ilan başıtək əziləcəkdir!**

Bəli, biz ümumilikdə iyirmi beş mindən artıq şəhid versək də, torpaqlarımızı qaytardıq, Vətənimizə sahib çıxdıq!

Prezidentimizi sevir, onunla qürur duyur və inanırıq ki, xilaskarı olduğu Qarabağı yenidən tikib-quraraq əsl cənnətə çevirəcəkdir!

Viran qoyulmuş Vətən mənzərəsi bizə nə qədər ağır gəlsə də, inam və təsəllimiz də böyükdür:

- torpağımıza qayıtmışıq;
- Vətənimizə sahib çıxmışıq;
- güclü ordumuz və güclü iqtisadiyyatımız var;
- Xalq rəhbərini sevir, onun ətrafında birləşərək bütün problemləri həll etmək iqtidarındadır;
- sabah bu gündən daha yaxşı, daha firavan olacaqdır!

*30 mindən çox itki verən Ermənistanın isə sabahı yoxdur!*

*Qonşularına qarşı ərazi iddiaları olan, daim başqa dövlətlərin əlində alətə çevrilən, özünə dövlət qurmağa qadir olmayan, ağıllı, hamının qəbul etdiyi rəhbər tapmayan bu faşist dövlətini hansı aqibət gözlədiyi bəllidir.*

**Biz şəhidlər və itkilər versək də, məqsədimizə çatdıq və daha heç kəs, heç zaman bizdən torpaq qopara bilməz!**

*Otuz il Qarabağın xarabalıqlarında dilənçi həyatı sürən, bu gün isə məhv edilmiş orduya, qorxaq fərarilər yığnağına arxalana bilməyən, korrupsioner dövlət başçılarına inanmayan, özgə torpağından birdəfəlik qovulanlar ağır itkilərinə, dövlətsiz qalmalarına, şərəfsiz duruma düşmələrinə görə özləri günahkardırlar.*

Artıq biz qisasımızın yeni mərhələsinə qədəm qoyuruq:

- işğaldan azad edilmiş ərazilərin bərpası;
- məcburi köçkünlərin geriyə qaytarılması;
- Qarabağımızın dirçəldilərək cənnətə çevrilməsi mərhələsinə!

❖ ❖ ❖

**Ağdamda heç zaman belə möhtəşəm görüş olmamışdır!**

**Prezidentimizi görən kimi elə bil üstümüzə gün doğdu!**

**Xalqımızın ümidi, pənahı cənab İlham Əliyev dünyanın hər bir guşəsində, hər bir tədbirdə ən çox arzu edilən və sevilən qonaqdır!**

**Hər yerdə onu hörmətlə qarşılayır, diqqətlə dinləyir, müdrik fikirlərindən, səmərəli təkliflərindən bəhrələnirlər.**

Koronavirus pandemiyası dünya ölkələrini öz qapılarını bağlamaq məcburiyyətində qoysa da, ünsiyyətin yeni forması, videokonfranslar yeni körpülər yaradıb.

Və biz bu yeni formatın mükəmməl nümunələrinin dəfələrlə canlı şahidinə çevrilmişik!

**İlham Əliyevlə canlı ünsiyyət isə hər kəsə qismət olan xoşbəxtlik deyil!**

**Prezidentimizin xoş aurası, sadə və səmimi davranışı, inamlı və qətiyyətli çıxışı bizi özgə bir aləmə apardı!**

**Viranəliyin şokundan ayılaraq yeni layihələrin yaradacağı xoş mənzərələrin təsiri altına düşdük.**

*Ağdamın dirçəlişindən danışan Qarabağın xilaskarı İlham Əliyevin hər kəlməsi, hər fikri canımıza yağ kimi yayılırdı.*

*Çünki deyilənlərin təsdiqini, hər bir məqamın nəzərə alındığını yeni Ağdamın Baş Planında aydın görürdük.*

*Həm də yaxşı bilirik ki, bu planın ideyası dünyanın ən uzaqgörən, ən işıqlı və ən zövqlü zəka sahibi olan cənab İlham Əliyevdən gəlib.*

*Sözünün sahibi olan cənab İlham Əliyevdən...*

**Deyir, Allah dərd verəndə, dərman da verir!**

**Bəli, yurdumuz viran qoyulsa da, onu qısa müddətdə dirçəltməyə qadir Rəhbərimiz, güclü iqtisadiyyatımız, vətənpərvər insanlarımız da var!**

**Prezidentimiz Ağdamı nəinki ən müasir şəkildə yenidən tikib-qurmaq, üstəlik, düşmən üçün gözdağına çevirmək niyyətindədir!**

Odur ki, qarşıya qəti tələb qoyub:

- Hər şeyin yaxşısı Ağdamda olmalıdır!
- Ağdam ən müasir yaşayış məntəqəsinə çevrilməlidir!
- Bütün dünyaya örnək olan Ağdam qurulmalıdır!
- Burada yaşayanlar özlərini rahat və asudə hiss etməlidirlər!

❖ ❖ ❖

İlahi, Ağdamda nələr olmayacaqdır!

Müstəqillik dövründə sərhədlərimiz açılmış, istənilən ölkəyə gediş-gəliş başlamışdır.

Yaranan imkandan bəhrələnənlərimiz, dünyanın ən gözəl guşələrində istirahət edənlərimiz də çoxdur!

Gizlətmirəm, həmişə dünyanın harasındasa gözəl, maraqlı, heyrətamiz bir şey görəndə ürəyimdə paxıllıq da etmişəm:

Bunlardan bizdə niyə yoxdur!

Kiçik bir haşiyə çıxmaq istəyirəm.

1941-1945-ci il müharibəsindən sonra, yetmişinci illərə qədər Azərbaycan çox yoxsul yaşayırdı (əslində, bütün SSRİ bu gündə idi). Əllinci illərdə evlərdə ağ nöyüt lampası yandırılar, ağ nöyütlə işləyən "maşınka"larda çay qaynadılar, xörək bişirilər, otaqlar isidilərdi.

Hələ nə Mingəçevir Su-Elektrik Stansiyası vardı, nə kifayət qədər maşın, mexanizm.

Ağdam bazarında ağ neft də satılırdı.

Ağdamlı dəmirçilərin ağ dəmirdən düzəltdikləri 20 litrlik neft qabları dəbdə idi.

Bazarda xüsusi hamballar da vardı. Həmin qabları ağ nöyütlə doldurduqdan sonra arxalarına yükləyər, müəyyən haqq məbləğində evə gətirməyə kömək edərdilər.

Bir qədər imkanlılar nöyüt alanda bazarlıq da edər, sonra bazarın qabağında "xaltura" üçün dayanan eşşək arabalarına yükləyərək fəxrlə yanınca gedər, dolu zənbilin aşıb dağılmamasına "nəzarət" edərdilər.

Sonra bu eşşək arabalarının yerini "Molotov moskviçləri" , "Zinbalalar", daha sonra "QAZ -21" və "QAZ-24", "Volqa"ları tutdu!

Son dövrlərdə isə "VAZ 2106"lar dəbə minmişdi.

Yeni salınan Ağdamda isə tramvaylar, həm də ən müasirləri, elektriklə işləyən təkərsiz tramvaylar cövlan edəcəkdir!

Ağdam şəhərinə içməli su Qaraqaya adlanan yerdən gətirilərdi.

Əhaliyə çatmazdı.

Hər məhəllədə bir, ya bir neçə su kranı qoyulardı.

İnsanlar əllərində vedrə növbəyə duraraq evlərinə su daşıyardılar!

Yeni Ağdamda motorlu qayıqların üzəbiləcəyi 2 kilometrlik kanal olacaqdır!

İnsanların dincəlməsi, zövq alması üçün göl yaradılacaq, şəlalə gurlayacaqdır.

79 kilometrlik velosiped yolu çəkiləcəkdir.

Ağdamın öz dağüstü parkı, cürbəcür karuselləri olacaqdır.

Yeni Qarabağ qəbiristanlığı salınacaqdır.

*Şəhərin yeni Baş Planının bütün elementlərini sadalamaq niyyətində deyiləm.*

*Sadəcə, əvvəlki Ağdamla yeni Ağdamın fərqini nəzərə çarpdırmaq istəyirəm.*

**Təqdimetmə mərasimində hər bir ideyanın Prezidentimizə məxsus olduğunun, hər bir layihənin onun tapşırığı və nəzarəti altında həyata keçirildiyinin şahidinə çevrildik.**

*Baş Planla tanışlıqdan sonra Ağdamın xarabalıqlarını unutduq, bədbin ovqatdan qurtulduq.*

*Buna həm də İlham Əliyevin sadə, səmimi davranışları, isti, xoş münasibəti səbəb oldu!*

*Prezidentimiz hər birimizlə şəkil də çəkdirdi!*

**Uzun müddət Ağdam itkisi, Ağdam nisgili, Ağdam ayrılığı bizi sıxıb, əzib hərdən isə ümidsiz duruma salıb.**

**İndi yeni Ağdamın təməlini qoyanlardan biri olduğuma görə özümü hədsiz dərəcədə xoşbəxt sanıram!**

**Bu xoşbəxtlik duyğularını bizə yaşadan, Ağdamımızı, bütün Qarabağımızı bizə qaytaran xalqımızın xilaskar oğlu, Müzəffər Ali Baş Komandanımız İlham Əliyevdir!**

- Beş əsr ərzində itirilmiş torpaqları geri qaytaran qüdrətli Sərkərdə İlham Əliyev!
- İkiəsrlik Qarabağ münaqişəsinə uğurla birdəfəlik son qoyan Müzəffər Ali Baş Komandan İlham Əliyev!
- Müqəddəs ata vəsiyyətini şərəflə yerinə yetirən İlham Əliyev!
- Azərbaycan xalqını ən böyük arzusuna çatdıran Xilaskar İlham Əliyev!

**Şükür Tanrımıza!**
**Dünən Ulu Öndərimizlə fəxr edirdik!**
**Bu gün isə Prezidentimiz İlham Əliyevlə qürur duyuruq!**
**Allah bu xoşbəxtliyi, bu xoş günləri bizə çox görməsin!**

**Bəxtiyar SADIQOV**



# 1 İyun Uşaqların Beynəlxalq Müdafiəsi Günüdür



# Nota alınmayan ən zərif səs - *körpə qığıltısı*

## Təəssüf ki, bəşəriyyətdə hələ də daha çox hüquqları pozulan, münaqişələrin qurbanları arasında uşaqlar da az deyil

1 iyun fidan balaların bayramıdır. Harada uşaq varsa, orada səmimiyyət, sevinc, ümidlər çiçəkləyir, arzular boy atır. Uşaqların beynəlxalq səviyyədə müdafiəsi üçün 1950-ci il iyunun 1-də BMT-nin Baş Assambleyası qərar qəbul edib.

Bütün demokratik dövlətlərdə olduğu kimi, ölkəmizdə də uşaq hüquqlarının qorunmasına xüsusi önəm verilir. Bu istiqamətdə Heydər Əliyev Fondu tərəfindən də genişmiqyaslı tədbirlər həyata keçirilir. Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, UNESCO və ISESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyeva xüsusi qayğıya ehtiyacı olan, valideyn himayəsindən məhrum uşaqlara daim diqqət və qayğı ilə yanaşır.

Ölkəmizdə uşaq hüquqlarının təmin olunması, onların istedadının üzə çıxarılması istiqamətində fond tərəfindən silsilə tədbirlərin keçirilməsi də bunu təsdiqləyir. Məhz Heydər Əliyev Fondunun təşəbbüsü ilə qaçqın və məcburi köçkün ailələrindən olan, eləcə də imkansız uşaqlara xüsusi diqqət ayrılır. Əlilliyi olan uşaqların cəmiyyətə inteqrasiya olunması istiqamətində tədbirlər həyata keçirilir.

Azərbaycan Prezidenti İlham Əliyev ölkədə uşaqlara dövlət qayğısının gücləndirilməsi, onların problemlərinə vətəndaş cəmiyyəti qurumlarının diqqətinin artırılması və demoqrafik perspektivlərinin müəyyənləşdirilməsi məqsədilə 22 dekabr 2008-ci il tarixli sərəncam imzalayıb. Həmin sərəncama görə, ölkəmizdə 2009-cu il "Uşaq ili" elan olunmuşdur. Bu sərəncamla uşaqların problemlərinin həlli istiqamətində müxtəlif layihələr reallaşdırılmışdır.

2009-cu ilin oktyabrında Azərbaycanda Uşaq ilinə və BMT-nin Uşaq Hüquqları haqqında Konvensiyasının 20 illiyinə həsr olunmuş uşaqların müdafiəsi islahatı üzrə keçirilən ikigünlük milli konfransda Birinci vitse-prezident Mehriban xanım Əliyeva çıxışında çox vacib mətləblərə toxunmuşdur.

Fond, demək olar ki, yarandığı gündən valideyn himayəsindən məhrum olmuş, dövlət müəssisələrində böyüyən uşaqların taleyini daim diqqət mərkəzində saxlayır. Təsadüfi deyil ki, doğmalarının himayəsindən məhrum olan uşaqlar bu gün Mehriban xanım Əliyevaya mənəvi ana kimi baxırlar. Bu da səbəbsiz deyil. "Uşaq evləri və internat məktəblərinin inkişafı proqramı" çərçivəsində Heydər Əliyev, Fondu tərəfindən onlarca, yüzlərlə dövlət müəssisəsi əsaslı təmir edilərək avadanlıqlarla təchiz olunub. Tez-tez uşaqların qonağı olan Mehriban xanım Əliyeva çalışır ki, onlarla həmişə ünsiyyət qursun.

Bu gün ölkəmizdə "hər şey uşaqların sağlamlığı naminə" devizi ilə bir sıra sosial-tibbi, humanitar layihələr həyata keçirilməkdədir. Eləcə də uşaqlara tibbi xidmət göstərən 600-dən artıq poliklinika, ambulatoriya və uşaq şöbəsi olan müəssisələrdə on minlərlə həkim-pediatr çalışır.

Təəssüf ki, körpə fidanların heç də hamısı xoşbəxt böyümürlər. Son yüzillikdəki bir sıra etnik, dini, məhəlli və regional münaqişələrin qurbanlarına çevrilənlərin müəyyən faizi də uşaqlardır. Nə yazıqlar ki, hazırda insan haqları, uşaq hüquqları və s. kimi anlayışları əldə bayraq edən sivil dünyanın, bir sıra beynəlxalq təşkilatların gözləri qarşısında onların ən ali hüquqları pozulmaqdadır. 1988-ci ildən Azərbaycana qarşı davam edən erməni təcavüzü nəticəsində öz doğma ata-baba yurdunda, evində azad yaşamaq haqqını itirmiş körpə və uşaqların pozulmuş hüquqlarının bərpası istiqamətində heç bir ciddi və səmərəli addım atılmadı. Yalnız ötən il sentyabrın 27-dən başlayan Vətən müharibəsində əldə etdiyimiz şanlı qələbə ilə ölkəmizdə erməni təcavüzünün qurbanlarından olan uşaqların pozulmuş hüquqları da bərpa edildi.

Yuxarıda qeyd etdiyimiz kimi, uşaq hüquqları ilə bağlı Avropada, Qərbdə bir çox hüquqi sənədlər qəbul edilib. İlk belə sənəd olan "Uşaq Hüquqlari Haqqında Konvensiya" Beynəlxalq Qadınlar Federasiyasının təşəbbüsü ilə hələ 1949-cu ildə BMT tərəfindən qəbul edilsə də, bu gün dünyanın bir çox yerlərində uşaq hüquqlarının pozulması hallarına davamlı şəkildə rast gəlirik. Belə hallarla işğalçı Ermənistanın təcavüzünə məruz qalmış Azərbaycan uşaqları da üzləşib. Ancaq özünün Qərbə inteqrasiya iddialarını ortaya qoymuş, demokratik inkişaf yolunu, hüquqi dövlət prinsiplərini özünün prioriteti elan etmiş Azərbaycana qarşı erməni təcavüzü nəticəsində çoxsaylı insan hüquq və azadlıqlarının, o cümlədən uşaq hüquqlarının pozulması hallarına indiyədək həmin Qərbdə göz yumulur, müvafiq beynəlxalq təşkilatlar tərəfindən adekvat reaksiya verilmir.

Tarixi Azərbaycan torpaqlarının işğalı zamanı bütün yerli əhaliyə, eləcə də uşaqlara heç bir aman verilməyib. Təkcə bir faktı demək kifayətdir ki, Qarabağ müharibəsi illərində 1000-dən çox uşaq şəhid olub. Yüzlərlə günahsız körpə Xocalıda, işğal edilən digər şəhər və kəndlərimizdə erməni quldur ordusu tərəfindən əsir götürülüb, işgəncələrə məruz qalıb. Bu körpələrə qarşı törədilmiş vəhşilik və qəddarlıq faktlarına faşistlərin əməllərində belə rast gəlmək mümkün deyil. Uşaqlara qarşı tarixdə görünməmiş zorakılıq və işgəncələrin tətbiq edilməsi haqqında yüzlərlə fakt məlumdur. Bu cür faktlar, hətta erməni yazarlarının, o cümlədən bədnam Zori Balayanın kitablarında açıq-aşkar əks olunub. O, erməniliyindən qalmayaraq, türk cocuqlarına qarşı törədilmiş vəhşiliyi, qəddarlığı təqdir və təbliğ edir.

Hər kəsdən daha çox sevgiyə ehtiyacı olan uşaqlara dövlət tərəfindən hərtərəfli diqqət yetirilir. Gələcəyimizin parlaq və işıqlı olması uşaqlarla bağlıdır. Onların nə dərəcədə sevgiyə, qayğıya ehtiyacı olduqlarını anlayıb gələcəyimizin aydın, işıqlı və parlaq olması üçün böyük işlərə imza atmalıyıq.

Hazırda uşaq hüquqlarının müdafiəsi dünyanın gündəliyində ən aktual məsələlərdən birinə çevrilib. Çünki müasir dünyada uşaq hüquqları ən müxtəlif şəraitlərdə pozulur. Bəzən evdə, məktəbdə, müəssisələrdə və ən nəhayət, icmalarda uşaqlar fiziki, psixoloji və cinsi təzyiqlərə, zorakılığa məruz qalırlar.

...Nəhayət, uşaqlar yalnız ailənin deyil, cəmiyyətin möhkənlənməsində mühüm amillərdəndir. Gələcək uşaq və gənclərindirsə, onlara qayğı hər addımda hiss olunmalıdır. Deyirlər nota alınmayan ən zərif səs də körpə qığıltısıdır. Uşaq olan ailədə sıx bağlılıq olar. Uşaq ata-ana sevgisinin qönçə gülüdür.

***Məhəmməd NƏRİMANOĞLU,***
***"Azərbaycan"***

# Doğulmadan şəhid övladı olmaq nəsibi...

*Əvvəli 1-ci səh.*



















Qızın simasındakı əzab işgəncəyə dönür. Hıçqırtı içində bircə kəlmə çıxır büzülmüş dodaqlarından: "Yavaş atın, yavaş atın üstünə torpağı"...

### Bu gün uşaqların günüdür

Uşaqlarımızı bütün xəta-bəladan, xəstəlikdən, qəzadan, cinayətkarlıqdan, dünyada onlara xətər yetirə biləcək hər nəsnədən qorumağa çalışırıq. Hətta onların müdafiəsini beynəlxalq səviyyəyə qaldırmışıq. 1 İyun Uşaqların Beynəlxalq Müdafiəsi Günüdür. Bu tarix beynəlxalq səviyyədə 1950-ci il iyunun 1-də BMT Baş Assambleyasının təşkilatçılığı ilə keçirilən qadınların beynəlxalq konfransında elan edilib.

BMT-də uşaq hüquqlarına dair konvensiya qəbul edilib, Azərbaycan müstəqillik qazandıqdan sonra bu konvensiyaya qoşulub. Uşaq hüquqları Konvensiyası BMT tərəfindən qəbul edilmiş bir saziş olaraq, dünyanın hər bir yerində yaşayan uşaqlara müəyyən edilmiş hüquqları təmin edir. Konvensiya uşaqların yaşaması və inkişafı üçün zəruri olan minimum standartları müəyyən edir. Konvensiyanı ratifikasiya etmiş bütün dövlətlər bu öhdəlikləri yerinə yetirməlidirlər. Bəs yetirirlərmi?

### Qaliblərin yadigarları

Uşaqlarımızın təhsil almaq, yaşamaq və inkişaf etmək, uşaqlıqlarını doyunca yaşamaq hüquqları var. Uşağın həyatı və sağlamlığının mühafizəsi biz böyük insanların çiyinlərinə düşür. Uşağın azadlıq və şəxsi toxunulmazlıq hüququ da qanunda öz əksini tapıb. Uşağın ailədə yaşamaq hüququ var.

Vicdan, fikir və söz azadlığı vermişik uşaqlara. Belə baxanda, onların xoşbəxt yaşamaları üçün hərtərəfli düşünmüşük. İnsanlıq düşünüb ki, uşaqlar sağlam böyüsün, gələcəyimizi onlara həvalə edək. Yalnız bir məqamı diqqətdən qaçırmışıq. Bununla da özümüz onların hüquqlarının müdafiəsi üçün yaratdığımız qanunları pozub, uşaqların ən başlıca hüquqlarını tapdalamışıq. Böyük əmilər beynəlxalq səviyyədə tərtib etdikləri sənədləri, qanunları elə özləri beynəlxalq səviyyədə pozublar.

Uşaq haqqında, onun müdafiəsi haqqında beynəlxalq konvensiyanın ilk bəndində "müharibə olmasın" yazılmalı idi. Çünki bütün müharibələr uşaqların və onların bütün hüquqlarının əleyhinədir.

Dünyada hər il minlərlə uşaq müharibələrin qurbanı olur. Həlak olur, şikəst olur, oxumaq hüququ pozulur. Müharibə uşaqları uşaq olmaq hüququndan məhrum edir. 44 günlük Vətən müharibəsində Ermənistanın dinc sakinlərimizi hədəf etməsi nəticəsində körpə uşaqlarımız öldürülüb. Uşaq düşmən nədir bilmir. Uşaq üçün insan var, düşmən yoxdur. Bir də var onu öldürənin insan yox, düşmən olduğunu bilmədən dünyadan köçən uşaq.

Müharibə uşaqlara şəhid övladı olmaq nəsib edir. Hələ dünyaya gəlməmiş taleyinə şəhid övladı olmaq yazılmış uşaqlar var. Vətən müharibəsindən, qələbədən sonra neçə-neçə körpə dünyaya şəhid övladı kimi göz açdı. Bu gün həm də onların beynəlxalq müdafiəsi günüdür. Dünyaya gəlib ata nə olduğunu bilmədən, amma qaliblərin övladları kimi yaşayacaq uşaqların...

### Bayramınız mübarək, şəhid övladları

"YAŞAT" Fondu Vətən müharibəsindən sonra dünyaya gələn şəhid övladları üçün müxtəlif layihələr həyata keçirir. Layihə çərçivəsində şəhidlərimizin yeni doğulacaq körpələrinin analarına zəruri xərclərin qarşılanması məqsədilə 1000 manat pul müavinəti təqdim olunur.

Şəhidimizin yeni doğulacaq övladının adına isə bankda depozit hesabı açılır və həmin hesaba fonda edilən ianələr hesabına toplanmış məbləğdən 5000 manat köçürülür. Bu məbləğin üzərinə mütəmadi olaraq faiz toplanılacaq və şəhid övladı 16 yaşına çatdıqdan sonra toplanan məbləği özü hesabından çıxara biləcək.

Azərbaycan qanunları 44 günlük Vətən müharibəsində ataları şəhid olan uşaqların müdafiəsindədir. Yalnız 1 iyunda deyil, hər gün onların günüdür. Şəhid övladları başımızın tacıdır. Şəhidlərin övladları cəmiyyətdən ayrı deyil. Qələbə qazanmış Azərbaycanın şəhid övladları qalib övladlarıdır.

Bizə qələbə bəxş edənlərin ruhu qarşısında hamımız baş əyirik.

Bayramınız mübarək, şəhid övladları. Atalarınız qəhrəmanlıqları ilə bizə başımızı uca tutmaq dərsini keçdilər.

Sizli-bizli başımız yalnız onların müqəddəs məzarları qarşısında əyilsin. Bir daha heç bir hüququnuz pozulmasın, qanunlar sizin hüquqlarınız üçün yazıldığı kimi işləsin.

***Ramilə QURBANLI,***
***"Azərbaycan"***

# Heydər Əliyev və uşaq ədəbiyyatı

AMEA-nın müxbir üzvü Yaşar Qarayev Ulu Öndərin 75 illiyi ərəfəsində qələmə aldığı məqaləsində yazırdı: "Heydər Əliyev olmaq, ümumiyyətlə, çətin işdir. 75 il fasiləsiz, hər ay, hər gün sərasər Heydər Əliyev olub qalmaq isə xüsusilə çətindir".

Həyatda Heydər Əliyev olmağın çətinliyinə etiraz edən tapılmaz. Bu işin ədəbiyyatda əksi, gerçəkdəki Heydər Əliyevi tarixi yaddaşdan ədəbi yaddaşa köçürmək, onun bədii obrazını yaratmaq ikiqat çətindir. Əgər bu obraz, bu bədii portret uşaqlar üçün yaradılırsa, azyaşlı oxucu üçün təqdim olunursa, işin ağırlığı bir qədər də artmış olur.

Heydər Əliyev bütün ağır və çətin işlərin içərisində xalqın gələcəyi hesab etdiyi uşaqlara da zaman ayırır, onların qayğı və problemləri, uğurlarıyla maraqlanırdı ki, bu da əslində onun mənəvi-əxlaqi dəyərlərə söykənən siyasi kursunun, Azərbaycan ideyasının tərkib hissəsi kimi dəyərləndirilməlidir.

Heydər Əliyevin ənənə halını almış, hər il qeyd olunan Uşaqların Beynəlxalq Müdafiəsi Günü tədbirlərində dərinməzmunlu çıxışlarını nəzərdən keçirdikcə onun bu sahədəki çoxyönlü işlərinə şahidlik edirik. Uşaqlara, yeniyetmələrə xitabla başlayan çıxışlar, əslində, Heydər Əliyevin gələcək nəslin tərbiyəsində, kamil şəxsiyyətlərin yetişməsində, azad və müstəqil Azərbaycanın idarəçiliyinin layiqli davamçılara ötürülməsi sahəsində gördüyü proqram xarakterli işlərin ifadəsi idi.

Çıxışlarının hamısında uşaqlara dərin sevgi və ehtiram ilə yanaşı, istedadlarına, qabiliyyət və kamallarına bir etimad və əminlik əks olunurdu. Bu arxayınçılıq və əminliyi şərtləndirən amillər onların idman, incəsənət-musiqi, rəqs, rəsm sahəsindəki bacarıqları və uğurları ilə yanaşı, həm də elm və təhsildə, olimpiadalarda əldə etdikləri nailiyyətlər idi.

Təbii ki, tarixi şəxsiyyətlərin öyrənilməsi, onların fəaliyyətlərinin tədqiqi elmi tarixin vəzifəsi olduğu qədər bədii ədəbiyyatın da borcudur. Ədəbiyyat tarixin yetişdirdiyi simaların obrazını yaratmaqla, həm də dünən, bu gün və sabah arasında ünsiyyət körpüsü qurmuş olur.

Heydər Əliyevin uşaq ədəbiyyatındakı obrazına işıq saldıqda göz önündə xilaskar, varlığı ümid və nicat vəd edən, Azərbaycanın özünəqədərki milli dövlətçilik, idarəçilik təcrübəsini bir daha nümayiş və təsdiq etdirən, təkcə həmfikirlərinə deyil, həm də opponentlərinə qəbul etdirən bir şəxsiyyət, xalqının qəhrəmanı, müdrik lider, millət atası kimi görünür. Heydər Əliyevin obrazına daha çox poeziyada rast gəlirik. Ulu Öndər haqqında uşaqlar üçün saysız-hesabsız şeirlər yazılmışdır. Nəbi Xəzri "İradə möcüzəsi", Valeh Mirzə "Ruhu canımızdadır", Şövkət Məmmədbəyli "Yaşayacaqdır", Uğurlu Xəlilov "Biri Günəş, biri Heydər", Xıdır Alovlu "Vətənləşən vətəndaş", Aygün Bal "Heydərin davamçısı gərək ki, Heydər olsun", Bəhlul Ataxanlı "Dünyanın Heydər oğlu", İlqar Dağlaroğlu "Heydər baba", Aynur Hüseynova "Körpələr babası sən, Heydər baba", Səmid Mövsümov "Qayəsi nur, özü də nur", Samir Səyyadoğlu "Haqqımızdır öyünmək", Əkbər Qoşalı "Ümidsiz ha deyilik", Ələmdar Quluzadə "Heydər baba, öndər baba", Rafiq Yusifoğlu "Rəhbərin heykəli", "Ulu Öndər", Nəriman Hüseyn "Nur övladı", Fərid Ağamirzəyev "Heydər baba", Oqtay Zəngilanlı "Ulu Heydər", "Millət atası", "Bir millət, iki dövlət" və adını çəkmədiyimiz yüzlərlə şeirdə Ulu Öndərin portretinə müxtəlif yöndən işıq tutulur.

> **"Bəzən məndən soruşurlar ki, bu qədər gərgin işləri aparmağım necə mümkün olubdur? Hər bir insanın ilhamverici qüvvəsi var. Mənə ilham verən ən böyük qüvvə Azərbaycanın uşaqlarıdır, Azərbaycanın gəncləridir, Azərbaycanın gələcəyidir".**
>
> **Heydər ƏLİYEV**

Bədii nümunələrdə Heydər Əliyevdən həm tarixin və zamanın yetirdiyi, həm də tarixin özünü yaradan, onu yönləndirən kimi danışılır. Elə söykənən, elin söykəndiyi, yol açan, özü yol olan, xalqdan güc alan, xalqın güc aldığı, genetik yaddaşın, tarixi təcrübənin yetirdiyi və özü nümunəyə, məktəbə çevrilən, vətənin həm əsgəri, həm generalı... Bu dilemmalar bəzən eyni şeirdə, bəzən də ayrı-ayrı, tam fərqli bədii nümunələrdə özünü göstərir:

Heydər, öz yurdunun sadiq əsgəri,
Türkün ən qüdrətli generalıydı.

***(Vahid Əziz)***

Qəlbini bürüyüb Azərbaycana,
Qəlbinə bürüyüb Azərbaycanı.

***(Məstan Günər)***

Sən tarixi yaza-yaza
Özün də tarix oldun.

***(Rafael Hüseynov)***

Sevimli uşaq şairi və yazıçısı Zahid Xəlilin Ümummilli Liderə həsr etdiyi silsilə-"Oxu, Surxay", "Bulaq", "O gecə", "Əl", "Heydər körpüsü", "Azərbaycan xiyabanı", "Uçaq", "Dağlar" şeirləri var. Bu şeirlərdə bütün övladları öz balası kimi sevən, onlara qayğı və diqqət göstərən, uğurlarından fərəhlənən, qürur keçirən dahi şəxsiyyət kimi söz açılır. Müəllif Ümummilli Liderin adı verilən park və xiyabanlardan, bulaqlardan danışır, onların əsrarəngiz və gözəlliyinin sirrini adlarından alması ilə izah edir. Şair üçün Babadağdan da uca, buludlardan da yüksək zirvə olan Ulu Öndərin saldığı yol - Heydər yolu kiçik oxuculara örnək göstərilir, bildirilir ki, bu yol xoş əmələ söykəndiyi üçün sonu uğura çıxır.

Leyla Əliyevanın "Mənim babam" şeirini fərqləndirən başlıca cəhət odur ki, əgər digər şeirlərdə müəlliflər öz qəhrəmanlarını böyüklərin söhbətlərindən, onun haqqında danışılanlardan, gördüyü işlərdən, tədbirlərdən tanıyıblarsa, bu şeirdəki təəssürat qəhrəmanıyla daimi ünsiyyətdən, baba-nəvə münasibətindən, sıx müşahidələrdən yaranmışdır:

Mənim babam gözəl insan,
Sevimlidir, mehribandır.
Yüz il, min il yaşayasan -
Desəm ona, yenə azdır.
İnsan var ki, qəlbi qara,
Bəd əməl³, bəd niyyəti.
Onlar hara, babam hara...
Bir insandır ədalətli,
Öz xalqına sədaqətli,
Mənim babam.
Kömək edər, əluzadar,
Dara düşsə bircə adam.
Bax, belə bir ömür yaşar.
Mənim məğrur,
Mənim əziz Heydər babam!

Rafael Hüseynovun "Sədaqət dərsi", "Sən tarixi yaradan", "Arzun" şeirləri Heydər Əliyevin bədii portretini əks etdirmək baxımından uşaqlar üçün uğurlu nümunələrdir. Bu poetik mətnlərdə Ulu Öndərdən bir məktəb, bir örnək kimi bəhs olunur. Bu məktəbdə vəfa dərsi var, ləyaqət, sədaqət dərsi var. Bu məktəb çətinliklər qarşısında mətanətli, dəyanətli olmağı, arzuların uğrunda əzmkar olmağı öyrədir. Bu bədii nümunələrdə poetik qəhrəmandan dönə-dönə oxunmalı kitab kimi danışılır. Bu kitabda "bir qəhrəmanın yenilməzlik hekayəti", "sadədən sadə insanın dahi olmaq şücaəti" yazılıb.

Heydər Əliyevin bədii obrazına nəsr əsərlərində də müraciət olunmuşdur. Sevinc Nuruqızının "Yaradılış" hekayəsi Heydər Əliyevin portretini toxuyan xalçaçı qadınla uşaqların təsadüfi və maraqlı görüşləri, dialoqları üzərində qurulub:

- Xalq çətində və darda ona arxalanıb. Onun böyük qəlbinə və siyasi məharətinə sığınıb. Onun bir çağırışı ilə meydanlara axışıb.

- Onun ətrafında yumruq kimi birləşib. Bu insan xalqa güvən verib, xalqda özünə inam yaradıb, xoşbəxt gələcəyə aparan yolda cəsarətlə addımlayıb. Gecəsini gündüzünə qatıb. Yorulmadan çalışıb... Ömrünü xalqının yolunda şam kimi əridib. Əsl siyasi lider olmağı bacarıb... Böyüklərin və uşaqların dostuna çevrilib...

- Uşaqlar diqqətlə dinləyirdi. Qadının həlim səsi və təsvir etdiyi qəhrəmanın insani keyfiyyətləri onları elə bil sehrləmişdi.

Artıq heç nə deməyə ehtiyac yox idi... Uşaqlar yerbəyerdən səsləndilər:

- Heydər baba...

❖ ❖ ❖

Heydər Əliyevin uşaq ədəbiyyatında obrazı güclü dövlət qurmağı bacaran, Azərbaycanın əbədiliyini təmin edən, Vətənə tuşlanan zərbələrə sinə gərən, 7-dən 77-yə hər kəsin qayğısını şəxsi problemi hesab edən "Heydər baba" kimi görünür.

***Aygün BAĞIRLI,***
***AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun elmi işlər üzrə direktor müavini, filologiya üzrə fəlsəfə doktoru, dosent***

# İtkin düşmüş daha bir hərbi qulluqçunun meyiti tapılıb

Vətən müharibəsində itkin düşmüş daha bir hərbi qulluqçunun meyiti tapılıb.

Bu barədə AZƏRTAC-a Hərbi Prokurorluğun Mətbuat xidmətindən məlumat verilib.

Məlumatda bildirilib ki, Azərbaycan Respublikası Silahlı Qüvvələrinin itkin düşmüş hərbi qulluqçularının tapılaraq, şəxsiyyətinin müəyyən edilməklə doğmalarına təhvil verilməsi istiqamətində Azərbaycan Respublikası Baş Prokurorluğunun və Respublika Hərbi Prokurorluğunun rəhbərliyinin nəzarəti ilə intensiv əməliyyat-istintaq hərəkətləri həyata keçirilir.

Hərbi prokurorluq orqanlarının və Dövlət Təhlükəsizliyi Xidmətinin əməkdaşlarının iştirakı ilə Silahlı Qüvvələrin hərbi qulluqçularından ibarət axtarış qrupları itkin düşmüş hərbi qulluqçularımızın axtarılması istiqamətində müntəzəm iş aparırlar.

İtkin düşmüş daha bir hərbi qulluqçunun - əsgər İmanov Məmmədağa İqab oğlunun meyiti Dövlət Təhlükəsizliyi Xidmətinin əməkdaşları ilə birgə həyata keçirilmiş əməliyyat-istintaq tədbirlərinin nəticəsində tapılaraq, şəxsiyyəti müəyyən edilməklə aidiyyəti üzrə verilməsi üçün zəruri tədbirlər görülür.

İtkin düşmüş digər hərbi qulluqçuların olduqları yerlərin müəyyənləşdirilməsi məqsədilə əməliyyat-istintaq tədbirlərinin icrası davam etdirilir, eləcə də axtarış qrupları tərəfindən hazırda intensiv işlər aparılır.

Allah bütün şəhidlərimizə rəhmət eləsin!

# Leyla Əliyeva nərə balıqlarının suya buraxılması mərasimində iştirak edib



Mayın 31-də IDEA İctimai Birliyi və Ekologiya və Təbii Sərvətlər Nazirliyinin birgə təşkilatçılığı ilə Azərbaycanın daxili su hövzələrinin bioresurslarının mühafizəsi və bərpasına yönəlmiş genişmiqyaslı "Zəngin hövzələr" layihəsi çərçivəsində "Xıllı-Balıq" MMC, "AzVarvara" MMC, "Azerbaijan Fish Farm" MMC balıqartırma zavodlarında yetişdirilmiş 550000 körpə nərə balığının suya buraxılması mərasimi keçirilib.

AZƏRTAC xəbər verir ki, tədbirdə Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva iştirak edib.

Məlum olduğu kimi, son onilliklər ərzində Xəzər dənizinin nadir balıq növlərinin populyasiyaları insan fəaliyyətinin mənfi təsirləri, çirklənmə, qaçaqmalçılıq və həddən artıq ovlanma nəticəsində məhvolma təhlükəsi həddinə çatıb.

Problemin hərtərəfli həlli məqsədilə IDEA İctimai Birliyi tərəfindən Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Böyük Britaniyanın "Mavi Dəniz Fondu" (BLUE) ilə birlikdə müxtəlif mühafizə, bərpa və ictimai maarifləndirmə tədbirləri həyata keçirilir.

"Zəngin hövzələr" layihəsi balıq növlərinin təbii populyasiyasının artırılması, balıqartırma zavodlarında yetişdirilən müxtəlif növ balıq körpələrinin təbii mühitə buraxılması, eləcə də daxili su hövzələrində çirkləndirilmənin azaldılması, qanuni və sivil qaydalarla balıq ovunun təşviqi üzrə tədbirlərin həyata keçirilməsini nəzərdə tutur.

Qeyd edək ki, ötən ilin may ayında start verilmiş layihə çərçivəsində indiyədək ümumilikdə 3 milyondan çox müxtəlifnövlü balıq körpələri su hövzələrinə buraxılıb.

"Zəngin hövzələr" layihəsinin icrası müddəti balıqların kürütökmə dövrü ilə əlaqədar 1 may tarixindən elan olunan 4 aylıq moratoriuma təsadüf edir.









# *Leyla ABDULLAYEVA:* "Həmsədrlər saxlanılan şəxslərin "hamının hamıya" prinsipi əsasında dəyişdirilməsini təklif etməzdən əvvəl onların saxlanma səbəblərinə diqqət yetirməlidirlər"




Həmsədrlərin bəyanatlarında qeyd etdikləri məsələlər, o cümlədən Azərbaycan-Ermənistan dövlət sərhədində yaşanan son gərginliklər, diversant qrupunun Azərbaycan ərazilərinə daxil olaraq terror-təxribat aktı törətmək cəhdi, delimitasiya və demarkasiya prosesi, habelə bölgəyə humanitar çıxışın təmin edilməsi ilə bağlı mövqeyimiz dəfələrlə rəsmi açıqlamalarda bildirilib.

AZƏRTAC xəbər verir ki, bunu Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin rəisi Leyla Abdullayeva ATƏT-in Minsk qrupunun həmsədrlərinin 2021-ci il 28 may tarixli bəyanatına münasibət bildirərkən deyib.

Leyla Abdullayeva bildirib ki, Azərbaycan azad olunmuş ərazilərin bərpası və insanların bu torpaqlarda yenidən sülh şəraitində birgəyaşayışının təmin edilməsi üçün bütün səylərini səfərbər edib və müvafiq tədbirləri həyata keçirir. Beynəlxalq humanitar təşkilatlarla beynəlxalq hüquq prinsipləri əsasında əməkdaşlıq həyata keçirilir, o cümlədən Qarabağda müharibənin təsirinə məruz qalan insanlara humanitar yardımın göstərilməsi üçün müvafiq addımlar atılıb.

Həmsədrlərin bəyanatlarında istinad etdikləri saxlanılan 6 erməni hərbçisi ilə bağlı xatırladırıq ki, bu erməni hərbçiləri yolların minalanmasına yönəlmiş təxribat törədərkən saxlanılıb. Azərbaycanın azad olunmuş ərazilərində Ermənistan tərəfindən basdırılmış minaların gündəlik əsasda insanların həyatına təhlükə törətdiyi bir vaxtda, Ermənistanın minaların yeri ilə bağlı məlumatı təqdim etməkdən imtina etməsi, üstəlik, əraziyə yeni minalar basdırmaq cəhdi heç bir çərçivəyə sığmır. Odur ki, həmsədrlər saxlanılan şəxslərin "hamının hamıya" prinsipi əsasında dəyişdirilməsini təklif etməzdən əvvəl ən azı bu şəxslərin saxlanma səbəblərinə diqqət yetirməli, təxribatçıları bu kimi fəaliyyətdən çəkinməyə çağırmalıdırlar.

Dəfələrlə bəyan etmişik ki, biz sərhəd gərginliyi məsələsinin danışıqlar yolu ilə həllinin tərəfdarıyıq, habelə beynəlxalq ictimaiyyətin iki dövlət arasında sərhədin demarkasiyası və delimitasiyası ilə bağlı çağırışlarını dəstəkləyirik. Bildiyiniz kimi, bir müddət əvvəl bu məsələ ilə bağlı irəli sürülən Azərbaycan ilə Ermənistan arasında sərhədin delimitasiyası və demarkasiyası üzrə müvafiq üçtərəfli komissiyanın yaradılması təklifini də Azərbaycan dəstəkləyib.

Yalnız beynəlxalq hüququn suverenlik, ərazi bütövlüyü və sərhədlərin toxunulmazlığına ciddi riayət olunması əsasında dövlətlərarası münasibətlər normallaşdırıla bilər, sərhəd xəttinin demarkasiyasına və delimitasiyasına başlamaq olar və nəhayət, sülh şəraitində birgə yaşayış üçün sağlam təməlin əsası qoyula bilər.

Həmsədr ölkələr isə öz növbələrində üçtərəfli bəyanatların icrasını dəstəkləməklə bölgədə sülh və inkişafın təmin olunmasına töhfə verə bilər.

# Ermənistan silahlı qüvvələrinə məxsus PUA ələ keçirilib





Azərbaycan Respublikasının Müdafiə Nazirliyi Ermənistan silahlı qüvvələrinə məxsus pilotsuz uçuş aparatının (PUA) ələ keçirilməsi ilə bağlı məlumat yayıb.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistan-Azərbaycan dövlət sərhədinin Kəlbəcər rayonu istiqamətində Ermənistan silahlı qüvvələrinə məxsus "Qrifon-12" tipli PUA bölmələrimiz tərəfindən aşkarlanaraq xüsusi texniki vasitələrlə yerə endirilib.

# FHN müharibə nəticəsində psixoloji problemlər yaşayan vətəndaşlarımıza psixoloji yardım işini davam etdirir

Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin müdrik rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusu 44 gün davam etmiş Vətən müharibəsi nəticəsində işğalçı düşməni torpaqlarımızdan qovaraq ölkəmizin ərazi bütövlüyünü bərpa etdi. Həm Birinci Qarabağ müharibəsi, həm də İkinci Qarabağ müharibəsi ilə əlaqədar şəhid ailələri, qazilər, müharibədən fiziki-mənəvi əziyyət çəkən insanlar daim dövlətimizin diqqət mərkəzindədir. Hər zaman dövlət başçısının qayğısı ilə əhatə olunan bu kateqoriyadan olan insanların sosial problemlərinin həlli, zəruri tibbi, o cümlədən psixoloji yardım təminatı yüksək səviyyədə həyata keçirilir.

Fövqəladə Hallar Nazirliyinin (FHN) Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, FHN tərəfindən Türkiyədən dəvət olunmuş peşəkar klinik-psixoloq və psixoterapevtlər nazirliyin mütəxəssisləri ilə birlikdə Vətən müharibəsi nəticəsində mənəvi-psixoloji problemlər yaşayan vətəndaşlarımızın, o cümlədən uşaq və yeniyetmələrin psixoloji reabilitasiyasını davam etdirirlər. Belə ki, ötən müddət ərzində ümumilikdə 1750 nəfərə yaxın Vətən müharibəsi iştirakçısı, qazi, şəhid ailəsi üzvü və erməni terrorundan zərərgörmüş digər şəxslərə, o cümlədən 150-yə yaxın uşaq və yeniyetməyə 3750-yə yaxın seans psixoloji yardım göstərilib.

Hazırda psixoloji yardım işi Bakıda davam etdirilir. Bundan əvvəl Gəncə, Bərdə, Lənkəran və Qəbələ şəhərlərində də FHN tərəfindən psixoloji yardım xidməti həyata keçirilib.

Ödənişsiz həyata keçirilən seanslarda iştirak etmək üçün nazirliyin 112 - Qaynar telefon xətti ilə əlaqə saxlamaq lazımdır.

# Beynəlxalq blogerlər Ağdamda erməni vəhşiliyini lentə alıblar

Ölkəmizdə səfərdə olan dünyanın 8 ölkəsindən olan blogerlər "Show me Azerbaijan" Beynəlxalq Blogerlər layihəsi çərçivəsində mayın 30-da işğaldan azad olunmuş Ağdam şəhərinə səfər ediblər.







Layihə İslam Əməkdaşlıq Təşkilatı Gənclər Forumunun Bakıda yerləşən Avrasiya üzrə Regional Mərkəzinin dəstəyi ilə həyata keçirilir. Layihənin məqsədi işğaldan azad edilmiş ərazilərdə mövcud olan vəziyyəti, işğalın ağır nəticələrini, Ermənistan tərəfindən törədilmiş kütləvi dağıntılar və insanlığa qarşı cinayətləri beynəlxalq ictimaiyyətə çatdırmaq, Qarabağ bölgəsi daxil olmaqla Azərbaycanı, onun maddi-tarixi və mədəni irsini, həmçinin Azərbaycanda mövcud olan unikal multikulturalizm mühitini və ənənələrini beynəlxalq sosial şəbəkələrdə tərənnüm etməkdir.

AZƏRTAC xəbər verir ki, Şimali Amerika və Avrasiyadan ümumilikdə 8 ölkənin 12 xarici sosial media blogeri əvvəlcə Ağdam şəhər Cümə məscidinə gələrək burada ermənilərin törətdikləri barbarlıqlarla tanış olublar. Onlara ermənilərin müharibə cinayətləri, mədəni, tarixi, dini abidələri məhv etmələri barədə məlumat verilib. Bildirilib ki, Ağdam Cümə məscidi 1868-1870-ci illərdə memar Kərbəlayı Səfixan Qarabaği tərəfindən tikilib. Bu məscid "Qarabağ məscid memarlığı" məktəbinə aiddir. Ermənilər tərəfindən dağıntılara məruz qalan Ağdam məscidinin minarələri daxildən sökülüb, tavanı bir neçə yerdən uçurulub, dizayn və yazıları bilərəkdən yararsız, tanınmaz vəziyyətə salınıb.

Ermənilər işğal etdikləri digər rayonlarda olduğu kimi, Ağdamda da Azərbaycanın tarixi-mədəni irsinə qarşı görünməmiş vandalizm həyata keçiriblər. Rayondakı abidələr, mədəniyyət ocaqları, məscidlər, qəbiristanlıqlar dağıdılıb, təhqir edilib, bəziləri isə erməniləşdirilib. Ağdam məscidi də ermənilər tərəfindən dağıntılara məruz qalıb, minarələri daxildən sökülüb, tavanı bir neçə yerdən uçurulub, dizayn və yazıları bilərəkdən yararsız, tanınmaz vəziyyətə salınıb. Cümə məscidi ölkə əhəmiyyətli abidələr siyahısındadır.

Nümayəndə heyəti Ağdam şəhərinin mərkəzi küçəsində ermənilərin yerləyeksan etdikləri binaların qalıqlarına baxıblar. Səfərdə iştirak edən Ağdam rayon sakini Fəxrəddin Hacıbəyli bir vaxtlar çalışdığı Ağdam Dram Teatrının dağıntıları qarşısında tarda milli musiqimizdən nümunələr ifa edib.

Xarici blogerlər sonra Ağdam şəhərindəki İmarət qəbiristanlığına gəliblər. Məlumat verilib ki, burada Qarabağ xanlığının əsasını qoymuş Pənahəli xanın və xanlıqda müxtəlif illərdə hakimiyyətdə olmuş hökmdarlar - İbrahimxəlil xanın və onun oğlu Mehdiqulu xanın qəbirüstü türbələri, həmçinin Mehdiqulu xanın qızı Xurşidbanu Natəvanın məzarları olub. Qarabağ xanlarının nəslindən olmuş digər görkəmli şəxslər də bu qəbiristanlıqda dəfn edilib. Lakin Ağdam şəhəri işğal olunduqdan sonra Pənahəli xanın buradakı sarayı və qəbiristanlıq erməni vandalizminə məruz qalıb. Erməni vandalları İbrahimxəlil xanın türbəsini və Qarabağın sonuncu hakimi Mehdiqulu xan Cavanşirin qızı Xurşidbanu Natəvanın qəbirüstü abidəsini də dağıdıblar. İşğal edilən ərazilərdəki məscidlər, məzarlıqlar kimi Pənahəli xanın imarəti də ermənilər tərəfindən təhqir edilib. Tövlə kimi istifadə edilən Xan sarayında inək və donuz saxlanılıb.

Qeyd edək ki, əsasən, instaqram, feysbuk və yutub kimi sosial media platformalarında fəal olan qrupun ümumi izləyici sayı 10 milyon nəfərdən artıqdır.

# *Amerikalı bloger:* "Ağdam şəhərindəki dağıntını görmək çox dəhşətlidir "

"Ağdam şəhərindəki dağıntını görmək mənə çox dəhşətli hisslər yaşadır".



AZƏRTAC xəbər verir ki, bunu jurnalistlərə müsahibəsində "Show Me Azerbaijan" layihəsi çərçivəsində Ağdamda səfərdə olan ABŞ-dan olan bloger və yotuber Dak Barner deyib.

D.Barner bildirib ki, ona Ermənistanın işğalı dövründə Ağdam şəhər Cümə məscidində heyvan saxlanıldığı barədə məlumat verilib: "Bu, çox məyusedicidir. Biz məsciddə yenidənqurma və bərpa işlərinin aparılacağına dair məlumatlarla da tanış olduq. Ağdam şəhərində artıq yenidənqurma işlərinə başlanılması çox sevindirici haldır".

# *Özbəkistanlı bloger:* "Ağdamdakı dağıntıların miqyası bizi çox kədərləndirdi"

"Qarabağa gəlmək istəyən jurnalistlər çoxdur. Arzulayırdım Qarabağa gəlim, burada baş verənləri öz gözlərimlə görüm. Bu gün istəyimə çatdım. Ağdamdakı dağıntıları görmək çox ağırdır".



Bu sözləri AZƏRTAC-ın bölgə müxbirinə "Show Me Azerbaijan" layihəsi çərçivəsində Ağdamda səfərdə olan Özbəkistanın qalampir.uz portalının müxbiri Feruza Nəcmiddinova deyib. O bildirib ki, Azərbaycanla bağlı çox məlumatlıdırlar və baş verənlər barədə informasiyalar yayımlayıblar. "Qardaş xalq olaraq Azərbaycanla bağlı çox bilirik və portalımızda çox məlumatlar paylaşırıq. Lakin səfər zamanı gördüklərimizi gözləmirdik. Biz binaların dağıdıldığını gördük, Cümə məscidində, İmarət kompleksində olduq. Bu dağıntıların miqyası bizi çox kədərləndirdi. Azərbaycana səfərimlə bağlı daha dolğun məlumatlar hazırlayıb paylaşacağam".


## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti ipsiz çəkmələrin satın alınması məqsədilə müsabiqə elan edir

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər.

Müraciət üçün son müddət 14 iyun 2021-ci il saat 18:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı şəhəri, Neftçilər prospekti 2.**

**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1263.**

***Tender komissiyası***

## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti sumbata kağızı, itiləyici və kəsici laqonda və dəzgah daşlarının satın alınması məqsədilə müsabiqə elan edir

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər.

Müraciət üçün son müddət 18 iyun 2021-ci il saat 18:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı şəhəri, Neftçilər prospekti 2.**

**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1263.**

***Tender komissiyası***

Təkrar

## "Azərişıq" ASC
## *açıq tender elan edir*

Tender 1 (bir) LOT üzrə keçirilir:

**LOT-1:** "Azərişıq" ASC-yə aid layihələrə tələb olunan müxtəlif kabel məhsullarının və naqillərin satın alınması

**İştirak haqqı - 500 manat**
**"Azərişıq" ASC**
**Hesab: AZ83AIIB33020029441802068118**
**VÖEN: 9900069391**
**Benefisiarın Bankı: Kapital Bankın Gənclik filial**
**Kod: 200189**
**VÖEN: 9900003611**
**Müxbir hesab: AZ37NABZ01350100000000001944**
**SWIFT Code: AIIBAZ2X**

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi texniki və maliyyə imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər LOT üzrə göstərilən məbləğdə iştirak haqqını qeyd olunan hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş Əsas şərtlər toplusunu Bakı şəhəri, M.Əliyev küçəsi, 130 ünvanında yerləşən "Azərişıq" ASC-nin inzibati binasından ala bilərlər.

İştirak haqqı heç bir halda geri qaytarılmır.

Əlaqələndirici şəxs - Emil Əliyev (telefon: 440-39-93 daxili (29-18)) emil.aliyev@azerishiq.az

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə;*
- *İddiaçının VÖEN-i, bank rekvizitləri, ünvanı, dövlət reyestrindən çıxarış;*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının yüklülük haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş arayış;*
- *iddiaçının Dövlət Statistika Komitəsindən sahibkarlıq kateqoriyası haqqında arayış;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının son 3 (üç) illik və ya fəaliyyətə başladığı dövrdən iş təcrübəsi, yerinə yetirdiyi böyük cari işlər və müqavilələr barədə məlumatlar;*
- *iddiaçının analoji işlərdə təcrübəsi haqqında məlumat;*
- *iddiaçının maddi-texniki bazası (sifarişi yerinə yetirməsi imkanı) haqqında məlumat;*
- *müvafiq mallar üzrə rəsmi partnyor, distribüter və ya istehsalçının rəsmi təmsilçisi olduğunu təsdiq edən sertifikat və ya məktub, habelə tələb olunan mallar üzrə mənşə və uyğunluq sertifikatları;*
- *müvafiq mallar üzrə istehsal edən zavodun rəsmi 5 (beş) illik zəmanəti;*
- *iddiaçı şirkətin rəhbərinin, habelə işlərini idarə edənlərin satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində məhkum olunmaması haqqında arayış;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (Təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır).*

Sənədlər Azərbaycan dilində 2 (iki) nüsxədə (1 ədəd əsli və 1 ədəd surəti) tərtib olunmalıdır (xarici dildə olan məlumatlar Azərbaycan dilinə tərcümə olunmalıdır)(əsli olmayan sənədlər notarial qaydada təsdiq olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununa uyğun olaraq həyata keçiriləcəkdir **(https://etender.gov.az/).**

